# Paris ziyanın yarısı məsəlini düşünmür…

Fransa səfirinin XİN-ə çağırılması ciddi siqnaldır



**Dünən Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı, COP29 ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib. Mötəbər tədbirin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa təşviq edilməsinin qəbuledilməz olduğu vurğulanıb.

(səh.2)



## Netanyahu və Qallantın həbsinə order verib

**Beynəlxalq Cinayət Məhkəməsi İsrailin Baş naziri Benyamin Netanyahu və sabiq müdafiə naziri Yoav Qallantın həbsinə order verib.**

Bu barədə Beynəlxalq Cinayət Məhkəməsinin saytında məlumat verilib.

Beynəlxalq Cinayət Məhkəməsi "Qəzza zolağında müharibə cinayətləri ilə əlaqədar" hər iki şəxsin həbsinə order verib.

❒ № 212 (6213) 2024-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 noyabr 2024-cü il (cümə)




# Daha dərsdən çox qaçan yoxdur

Məktəblərdə şagird sayının az olması ailələrdə uşaq sayının azlığı ilə bağlıdır

**Təhsil sahəsinin ən böyük problemi komplektləşdirilmiş məktəblərin sayının az olmasıdır.**

Bu barədə Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev danışıb. Nazir bildirib ki, 4400 məktəbimizin təxminən 1500-də şagird sayı 100-dən azdır...

(səh.5)




## İmzalar atıldı

COP29-da ilk dəfə olaraq Su üzrə İqlim Fəaliyyəti Bəyannaməsi qəbul edilib

**COP29 çərçivəsində ilk dəfə olaraq Su üzrə İqlim Fəaliyyəti Bəyannaməsi qəbul edilib.**

Bəyannaməni COP29 prezidenti Muxtar Babayev və Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen imzalayıb.

Qeyd edək ki, "Bakı Su Dialoqu" platforması iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması, çirklənmə və səhralaşma ilə mübarizədə qlobal əməkdaşlığı genişləndirmək məqsədi daşıyır. Qəbul edilən Su Bəyannaməsi bu istiqamətdə yeni tərəfdaşlıqların qurulmasına və siyasət tədbirlərinin gücləndirilməsinə töhfə verəcək.

## Dünya ölkələri gördülər ki…

Bakı COP üçün ən uğurlu məkandır




**Bakıda keçirilən COP29 tədbirinin müddəti uzadılıb. İlkin plana əsasən noyabrın 22-də yekunlaşmalı olan konfrans ayın 23-də də davam edəcək.**

Bu qərar tədbirin gündəliyindəki mühüm məsələlərin tam həll olunması və iştirakçı dövlətlərin fikir mübadiləsinin effektiv şəkildə davam etməsi üçün qəbul edilib.

(səh.5)

# Rusiya qazandı

Ukrayna ordusu artıq taqətdən düşüb



Trampın hakimiyyətə gətirdiyi şəxslərin hamısı anti-Ukrayna mövqeyində olan şəxslərdir

**Ukrayna Silahlı Qüvvələri Britaniya istehsalı olan "Storm Shadow" uzaqmənzilli raketləri ilə Rusiya ərazisinin dərinliklərindəki hədəflərə ilk dəfə zərbə endirib.**

Məlumatda qeyd olunub ki, müharibənin başlamasından 33 ay sonra Ukrayna Britaniyadan aldığı bu qabaqcıl silah növünü Rusiya ərazisini vurmağa tətbiq edib.

Britaniya Nazirlər Kabinetinin sözçüsü məsələ ilə bağlı şərh verməyəcəklərini bildirib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, NATO qüvvələrinin Ukraynada peyda olması bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaq və alyansın Rusiyaya qarşı müharibəyə girməsi anlamına gələcək. Onun sözlərinə görə, NATO-da bunu anlamırlar: "Başa düşmürəm, bəlkə də, onlar anlamırlar ki, NATO kontingentinin Ukrayna ərazisində peyda olması alyansın ölkəmizə qarşı müharibəyə girməsi anlamına gələcək. Biz bu barədə onlara dəfələrlə demişik. Axı bu, təkcə Avropa üçün deyil, bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaq".

(səh.4)

# Ermənistan labirintdədir

Bakı şərtlərindən bir addım geri çəkilməyib





**Bakı İrəvandan Ermənistan Konstitusiyasının dəyişdirilməsini tələb edir.**

Razılaşdırılması ən çətin olan problemin də bununla bağlı olduğu bildirilir. Ermənistan Konstitusiyasında istinad edilən Müstəqillik Bəyannaməsində Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiası var. Rəsmi Bakı bu istinadın Ermənistan Konstitusiyasından çıxarılmasını tələb edir.

Azərbaycanın qəti mövqeyi belədir ki, sülh müqaviləsinin imzalanması bundan sonra, yaxud sazişin tam razılaşdırılması ilə baş tuta bilər.

(səh.3)



## Ünvanlar açıqlandı

Bakıda böyük tikinti başlayır

**Bakıda yeni yaşayış binaları tikiləcək. Nizami rayonu, B.Çobanzadə, M.Gəncəvi və İ.Nəsimi küçələrinin kəsişməsində, 2532-ci məhəllədə "Orbita" MTK tərəfindən yeni yaşayış binaları tikiləcək.**

Bundan əlavə, Suraxanı rayonu Yeni Günəşli "D" yaşayış sahəsi, 27 saylı binanın şimal hissəsində yerləşən "Etibarlı" MTK tərəfindən daha bir yaşayış binaları tikiləcək. (milli.az)

*Qeyd edək ki, tikinti layihələri təsdiqləndikdən sonra proses başlayacaq.*

## Samir Şərifov baltanı kökündən vurub

Cərimələrin mənimsənilməsi faktları varsa, mütləq araşdırılmalıdır




**Azərbaycanda vətəndaşlara yazılan cərimələr bəzən dövlət büdcəsinə daxil olmur.**

Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları və Regional məsələlər komitələrinin birgə iclasında bildirib. Onun sözlərinə görə, vəziyyəti düzəltmək üçün yeni proqram təminatı yaradılıb və cərimələrin düzgün ödənilməsinə nəzarət ediləcək.

(səh.4)

## Uşaqlar arasında koronavirus davam edir

İndiki dövrdə infeksiyalara qarşı immun sistemi də yaxşı deyil



**Uşaqlar arasında təhlükəli virus yayılıb.**

Xəzər TV bildirir ki, əsasən 5-15 yaş aralığında uşaqların çox yoluxduğu virus qrip kimi xəstəliklərlə oxşar simptomlarla müşayiət olunduğundan valideynlər arasında çaşqınlıq yarada bilir.

(səh.3)



## 2025-ci ildə bizi 2 böyük hadisə gözləyir

Murov tunelinin, eyni zamanda Kəlbəcər-Ağdərə yolunun yenidən qurulmasından sonra yurdumuza qayıdış kütləvi xarakter alacaq

(səh.4)



## Sahil Babayev hünərindən danışdı

"Bizim pensiya sistemimiz çox humanistdir"

(səh.2)



# Paris ziyanın yarısı məsəlini düşünmür...

## Fransa səfirinin XİN-ə çağırılması ciddi siqnaldır

**Dünən Fransanın Azərbaycandakı səfiri Ann Buayon Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı, COP29 ərəfəsində və sessiya zamanı Fransanın Azərbaycan sədrliyinin hədəf alınmasına etiraz bildirilib.**

Mötəbər tədbirin boykot edilməsinə çağırışların, bir çox dövlət başçılarının tədbirə qatılmamağa təşviq edilməsinin qəbuledilməz olduğu vurğulanıb. Eləcə də COP29 konfransı başlayan zaman Fransanın xüsusi səyləri ilə Avropa Parlamentində sədrliyimizi əsassız şəkildə tənqid edən, ümumilikdə isə iqlim dəyişmələri ilə mübarizə sahəsində qlobal səylərimizə qarşı çevrilmiş qətnamənin yolverilməz olduğu vurğulanıb.

Bundan başqa səfirin diqqətinə Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, militarizmi və revanşizmi təşviq edən Fransanın addımlarının sülh prosesinə zərbə olduğu çatdırılıb. Azərbaycanı hədəf alan, eləcə də normallaşma prosesini təhlükə altına salan bu addımlara son qoyulması Fransa tərəfindən təkidlə tələb olunub.

> “Parisin cəhdləri Ermənistanın da bir dövlət kimi bundan sonra mövcud olmasını sual altında qoyur”

**Millət vəkili Hikmət Babaoğlu ”Şərq”ə bildirib ki, hazırda Fransanın rəhbərlik etdiyi bir marginal Qərb mərkəzi var və bu mərkəz Azərbaycana qarşı bütün parametrlər üzrə müharibə elan edib. Deputatın sözlərinə görə, Fransanın rəhbərlik etdiyi marginal mərkəzə Avropada yalnız islamofob və ermənipərəst dairələr daxildir:** ”44 günlük müharibədən ötən dörd il müddətində həm ermənilərə, həm də onların arxasında duran güclərə qarşı virtual müstəvidə və informasiya cəbhəsində mübarizə apaılır. Şübhəsiz ki, buna son qoymağın vaxtı çatıb. Fransanın keçmiş xarici işlər nazirinin də etiraf etdiyi kimi, Parisin Azərbaycana qarşı olan siyasəti, əslində, Fransanın özünə qarşı yönəlib. Ötən dövr ərzində Fransa Azərbaycana qarşı heç nəyə nail ola bilməyib. Azərbaycan isə Sakit Okean adalarından, Şimali Afrikadan tutmuş Fransanın koloniyalarının tələblərini, səslərini bütün dünyaya çatdıra bilib. Bu isə Fransanı daha da marginallaşdırıb. Belə məqamda Bakı COP29-un gedişində bu qərəzli fəaliyyətə son qoyulmazsa, ermənilərin daha pis duruma düşəcəyi, Fransanın beynəlxalq münasibətlər sistemində nüfuzunun daha da aşağı enəcəyi ilə bağlı xəbərdarlıq etdi”.

**Parlament üzvü bəyan edib ki, Fransa Azərbaycana qarşı təkcə informasiya müharibəsi aparmır, həm də erməniləri var gücü ilə silahlandırmaqla onları yeni müharibəyə hazırlayır:** ”Bu cəhdlər Ermənistanın da bir dövlət kimi bundan sonra mövcud olmasını sual altında qoyur. Məhz bu strateji düşüncənin izah edilməsi baxımından Fransa səfirinin Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılması və prosesin Ermənistan üçün hansı fəsadlara gətirə biləcəyinin izah edilməsi baxımından da olduqca əhəmiyyətlidir”.

**İsmayıl Qocayev**

# Azərbaycanda iki qurum ləğv edildi

## On gün müddətində zəruri tədbirlər görülməlidir



**Prezident İlham Əliyev Azərbaycan Dövlət Tərcümə Mərkəzinin və Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin ləğv edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, ”Azərbaycan Dövlət Tərcümə Mərkəzi” publik hüquqi şəxs ləğv edilir.

Nazirlər Kabineti ”Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi ilə bağlı on gün müddətində zəruri tədbirlər görməlidir.

Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin tərcümə və dövlət dilinin tətbiqi sahəsində funksiyalarının aidiyyəti dövlət orqanlarına (qurumlarına) ötürülməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

Sərəncamın 1-ci hissəsi və 2.1-ci bəndi nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunmalıdır.

Bu Sərəncamın 1-ci hissəsində və 2.1-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslərin ləğvi ilə əlaqədar onların istifadəsində olan dövlət əmlakı ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.

# Az qaldı

## Bakıda noyabrın 25-dən daha 46 avtobus marşrutunun fəaliyyəti bərpa edilir




**Bakıda noyabrın 25-dən daha 46 sayda avtobus marşrutunun fəaliyyəti bərpa edilir.**

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) xəbər verir ki, hərəkət sxemləri bərpa ediləcək marşrutlar bunlardır:

1, 7B, 13, 15, 31, 37, 38, 40, 54, 55, 60, 62, 70, 71, 93, 96, 105, 107, 118A, 118B, 131, 139, 141, 148, 162, 163, 166, 168, 169, 172, 173A, 173B, 184, 185, 189, 197, 198, 204, 205, 214, 216, 217, 120E, M8, 140E və E1.




# Böyük təkana ehtiyac var

## Quterreş: “Məqsəd inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu maliyyəni səfərbər etməkdir”

**“G20 liderlərinin COP-un uğurunu təmin etməsi və yeni iqlim maliyyəsi məqsədinə çatılmasına cəhd edirəm. Nümayəndə heyətləri və COP29 sədrliyi ortaq fikirlər tapmaq üçün çox çalışırlar”.**

Bu sözləri BMT-nin baş katibi Antoni Quttereş COP29 tədbiri zamanı deyib.

O, bütün gözlənilən məsələlərlə bağlı iddialı və balanslı müzakirələr aparmaq üçün böyük təkana ehtiyac olduğunu vurğulayıb:

”Hər bir kəs bilməlidir ki, iqlim maliyyəsinin razılaşdırılmasından imtina yaranmış vəziyyətdən çıxış yolu sayıla bilməz. Bizə lazım olan şey Bakıda yeni iddialı iqlim maliyyəsi məqsədi ilə bağlı razılaşma əldə etməkdir”.

Quttereşin sözlərinə görə, məqsəd inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu maliyyəni səfərbər etmələridir:

“Maliyyə artımı həqiqətən də vacibdir. Bütün tərəflərin 1.5 ilə uyğunlaşdırılmış yeni təbii fəaliyyət planlarını təqdim edə bilməsini təmin etmək olduqca önəmlidir. Sərt mövqeləri yumşaltmaq, fərqliliklərinizi gözardı etmək lazımdır”.

# Zaxarova canlı efirdə telefon zənginə cavab verməsinə aydınlıq gətirib




**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinq zamanı canlı efirdə telefon danışığı ilə bağlı vəziyyətə aydınlıq gətirib.**

APA-nın Moskva müxbiri xəbər verir ki, Rusiya XİN sözçüsü bildirib ki, həftəlik canlı brifinq zamanı ona telefon zəngi şərhlərdən birinin mövzusunu ekspertlərlə aydınlaşdırmaqla bağlı olub:

”Brifinqdən əvvəl internetdə ziddiyyətli materiallarla bağlı suallar var idi. Mütəxəssislərdən bunun bizim mövzumuz olub-olmadığını soruşdum. Cavab brifinq zamanı gəldi - Xarici İşlər Nazirliyi şərh vermir”. Zaxarova Rusiya Xarici İşlər Nazirliyində heç bir intriqanın olmadığının əlavə edib.

*Qeyd edək ki, bu gün həftəlik brifinq zamanı canlı efirdə Zaxarovaya telefon zəngi gəlib. O, zəngə cavab verib. Zəng edən şəxsin səsi də efirə düşüb. Belə ki, həmin şəxs Zaxarovaya ballistik raketlərlə bağlı suala şərh verməməyi söyləyib.*

# Sahil Babayev hünərindən danışdı

## “Bizim pensiya sistemimiz çox humanistdir”

**Milli Məclisin Əmək və sosial siyasət və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında 2025-ci il büdcəsinin müzakirələri keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib ki, ölkədə yaşayan bütün insanların rifahı bizim siyasətimizin ana xəttini təşkil edir. Nazir bildirib ki, bu baxımdan 2025-ci il büdcəsi məhz sosial çağırışlara cavab vermək üçün hazırlanıb:**

”Dövlət büdcəsində gələn il sosial xərclərə 16,9 milyard manat vəsait ayrılıb. Sosial müdafiə və sosial təminat xərcləri cari illə müqayisədə 10 faiz artıq olacaq. Xərclərin 96 faizi əhaliyə ödənişlərin payına düşür. 7,2 milyard manat əmək pensiyalarının maliyyələşdirilməsinə yönəldiləcək. Əmək pensiyalarının orta məbləğinin 531 manata çatması proqnozlaşdırılır. 2019-cu ildə əmək pensiyalarının orta məbləği cəmi 264 manat idi. Yaşa görə əmək pensiyalarında rəqəm daha yüksəkdir, burada rəqəm 569 manat olacaq. 2019-cu ildə bu, 292 manat idi. Bütün artımlar əhəmiyyətli artımlardır”. Sahil Babayev deyib ki, 2019-2024-cü illər ərzində fərdi uçotun sağlamlaşdırılması istiqamətində ardıcıl işlər görülüb: ”Bu illər ərzində 830 mindən çox praktik sosial ödəniş təyinatı aparılıb. Yaşa görə pensiyaların 89 faizi praktik olaraq təyin edilib. 2019-2024-cü illər ərzində əsassız pensiya ödənişlərinin dayandırılması və vergi sisteminin tətbiqi ilə 3,1 milyard manat vəsait əldə edilib. Bunun 1,6 milyard manatı dövlət büdcəsinə ödənilib, 1,5 milyard manatı isə investisiyaya yönəldilib”.

### “Sosial islahat paketi 3 milyona qədər insanı əhatə edəcək”

Əmək və əhalinin sosial müdafiəsi naziri bildirib ki, Qarabağa qayıdan insanlar arasında ixtisaslı kadrların hazırlanması bizim hədəfimizdir: ”Bununla bağlı Elm və Təhsil Nazirliyi ilə proqram hazırlayıblar. Ölkə başçımız tərəfindən növbəti ildə böyük sosial islahat paketinin həyata keçiriləcəyi elan olunub. Minimum əməkhaqqı və minimum pensiya, eyni zamanda sosial ödənişlərdə artımların edilməsi, ümumilikdə pensiyaların indeksləşdirilməsi həyata keçiriləcək və bu sosial islahat paketi 3 milyona qədər insanı əhatə edəcək”.

### “İqtisadiyyatımız daha çox iş yeri yaratmalıdır ki, insanlar da ora yönəldilsin”

S.Babayev deyib ki, məşğulluqla bağlı çağırışlar bitməyəcək, cəmiyyət inkişaf etdikcə, bu, davam edəcək. Nazir bildirib ki, bu gün dünyanın ən inkişaf etmiş ölkələrində velə işsizlik də var: ”Bu gün Azərbaycanda aparılan ciddi sosial iqtisadi islahatlar nəticəsində əmək müqavilələrinin sayı 600 min artıb, bunun 500 mini özəl sektorun hesabınadır. Məşğulluq problemi tam şəkildə həll olunacaq məsələsi yoxdur. Dövlət Məşğulluq Agentliyi bir körpüdür. Məşğullq Agentliyinin rolu müraciət edən insan resurslarını yaradılmış iş yerlərinə yönəltməkdir. İqtisadiyyatımız daha çox iş yeri yaratmalıdır ki, insanlar da o iş yerlərinə yönəldilsin. Bu gün bizim ana problemlərimizdən biri ixtisaslı işçi qüvvələri ilə bağlıdır. Dövlət Məşğulluq Agentliyi çox böyük bir yenidənqurmadan keçir. Dövlət Məşğulluq Agentliyi hazırda il ərzində 200-400 min insanı əhatə edən proqramlar icra edir. Lakin alətləri nə qədər təkmilləşdirsən də, mövcud əmək resursu və mövcud iş yerindən kənara çıxa bilməzsiniz. Bu gün əlimizdə olanlar budur”.



> “Vətəndaş bir gün belə işləməyib, heç vaxt sosial sığorta ödəməyibsə, onlar pensiya sisteminə girə bilməz”

### “İnsan işsiz olar, amma məşğulluqda qeydiyyata düşməyə bilər”

Sahil Babayev vətəndaşın işsiz statusunun hansı halda ləğv edildiyini açıqlayıb. Nazir bildirib ki, məşğulluqda qeydiyyatda olan şəxslərə 2-3 dəfə iş təklif edilərsə, üzrlü səbəb göstərilmədən işdən imtina olunarsa, onların işsiz statusu ləğv edilir: ”Bu gün bizim 480-490 min vətəndaşımız məşğulluq orqanlarında qeydiyyatdadır. Onların yarısı işsiz kimi, təqribən bir o qədəri də iş axtaran kimi qeydiyyatdadır. İş axtaran şəxslər işi olan, amma yeni iş axtaran şəxslərdir. Bizim niyyətimiz qətiyyən passiv alətlərin artırılması deyil. Biz daha çox aktiv alətlərə vəsait verməyin tərəfdarıyıq. Sığorta olaraq, biz işsizlərə aktiv veririk. Onları peşə hazırlığına cəlb edirik, Məşğulluq Agentliyi onları işə düzəldir. Biz bu şəkildə aktiv alətləri artırırıq. Passiv alətləri artırsaq, insanlar əmək bazarından kənarlaşmaq üçün stimullaşmaya gedə bilər”.

### “İnanmıram ki, ölkədə bütün xəstəxanalar adekvat işləmir”

Sahil Babayev əlillik pensiyası kəsilən şəxslərə yenidən yoxlamadan keçməyi, xəstəxanaya müraciət etməyi məsləhət görüb. Nazir bildirib ki, cari ildə 40 mindən artıq vətəndaşa əlillik təyin edilib: ”Bunun 50 faizi ilkin əlillik, 50 faizi təkrar əlillikdir. Haqqı çatan, qanunvericiliyə uyğun olan bütün hallar dəyərləndirilməli, bu insanlara əlillik təyin edilməlidir. Saxta şəkildə əlillikdən gəlir yeri kimi istifadəyə isə icazə verilməməlidir. Bunun qarşısı alınacaq”.

Nazir əlilliyi kəsilən və 2-3 ildir, əlilliyi bərpa edilməyən insanlarla bağlı məsələyə toxnunub: ”Mən inanmıram ki, ölkədə bütün xəstəxanalar adekvat işləmir. Əlillik pensiyası kəsilən şəxslər yenidən yoxlamadan keçməli, xəstəxanaya müraciət etməlidirlər”.

### “İnsanlar öz sığortasını toplaya bilməlidir...”

S.Babayev deyib ki, daha az gəlirli pensiyaçıları yüksək indeksasiya edib, yüksək pensiya alanları daha az indeksasiya etməyimiz sosial cəhətdən düzgün deyil. Biz bununla daha çox sığorta ödəyən şəxsləri cəzalandırmış olarıq. Nazir bildirib ki, bunu etməmək üçün minimum pensiya artımına gedilir: ”Sosial sığorta alan şəxslərə ödədikləri sosial sığortaya əsasən pensiya versəydik, onlar 110 manatdan yuxarı pensiya almazdılar. Minimum pensiyanın artımı ilə onlar alacaqları məbləğdən 2-3 dəfə daha artıq pensiya alırlar. Vətəndaş bir gün belə işləməyib, heç vaxt sosial sığorta ödəməyibsə, onlar pensiya sisteminə girə bilməz. Bu, düşünürəm, ədalətli yanaşmadır. Biz çox böyük sosial sığorta ilə bağlı amnistiyaya getmişik. Artıq əməkhaqlarının formallaşdığını nəzərə alsaq, insanlar öz sığortasını toplaya bilməlidir. Bu gün bizim pensiya sistemimiz çox humanistdir. Bu gün orta pensiya müddəti 14 il 6 ayın üzərindədir, 2,5 il əlavə pensiya alırlar. Bu gün biz sığortanın prinsiplərini birəbir tətbiq etsək, şərtləri qat-qat sərtləşdirməliyik”.

### ”Yaşa görə pensiyanın orta aylıq məbləğinin 571 manata yüksəlməsi proqnozlaşdırılır”

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, Dövlət Sosial Müdafiə Fondunun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,52 faizini və ya 7 milyard 408 milyon manatını əhaliyə ödənişlər təşkil edəcək.

Komitə sədri qeyd edib ki, əhaliyə ödənişlər üzrə xərclərin 7 milyard 210 milyon manatı əmək pensiyalarının, 198,4 milyon manatı isə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin payına düşür: ”Əhaliyə ödənişlərin 2025-ci il üçün nəzərdə tutulmuş proqnozu 2024-cü ilin təsdiqlənmiş proqnozundan 702,4 milyon manat, yaxud 10,5 faiz çoxdur. Əmək pensiyalarının orta aylıq məbləğinin 2024-cü ildə 494 manat təşkil edəcəyi gözlənilir, 2025-cü ildə isə 535 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq - 571 manata yüksəlməsi proqnozlaşdırılır”.

### “Müharibə veteranlarına verilən 80 manat müavinət artırılsın”

Deputat Əli Məsimli bildirib ki, müharibə veteranlarına verilən 80 manatın artırılması istiqamətində böyük gözlənti var. Deputat pensiyaların verilməsində qrafikin dəyişdirilməsinin narazılıq yaratdığını da deyib: ”Çünki pensiyaçıların banka, mağazalara, apteklərə borcları var. Elə olmalıdır ki, pensiyanı kreditə ödəyən vətəndaş bir də gecikməyə görə faiz cəriməsi ödəməsin. Eyni zamanda xeyli ailə var ki, onların gəlir mənbəyi pensiyadır. Əvvəlki qrafikə keçirilsə, xeyli insan məmnun olar”.

### “Müharibə əlillərinin pensiya təminatı ilə bağlı məsələ illərdir davam edir”

Deputat Azər Badamov Birinci Qarabağ müharibəsi əlillərindən bəzilərinin pensiyasının dayandırılması məsələsinin araşdırılmasını istəyib: ”Birinci Qarabağ müharibəsi əlillərinin pensiya təminatı ilə bağlı məsələ illərdir davam edir. Son illər bir neçə Birinci Qarabağ müharibəsi əlilinin pensiya təminatı dayandırılıb. Onlar narazılıqlarını bildirirlər”. Deputat bildirib ki, həmin vətəndaşlar əlilliyinin dayandırılması ilə bağlı yenidən müraciət etdikdə, onlara mənfi cavab verilir: ”Mümkündürmü ki, həmin vətəndaşlar onlyan şəkildə deyil, əyani qəbul olunsun və əlillikləri bir daha dəyərləndirilsin. Nəyə görə əlillikləri dayandırılıb, birbaşa izah olunsun”. Komitə sədri Musa Quliyev isə qeyd edib ki, şikayət varsa, əyani şəkildə əlilliyin təyinatı üçün görüşlər aparılır: ”Bəlkə seçiciləriniz bunu bilmir. Amma bu məlumatı onlar bilməlidir”.

**İsmayıl**



# Ermənistan labirintdədir

## Bakı şərtlərindən bir addım geri çəkilməyib

**Bakı İrəvandan Ermənistan Konstitusiyasının dəyişdirilməsini tələb edir. Razılaşdırılması ən çətin olan problemin də bununla bağlı olduğu bildirilir. Ermənistan Konstitusiyasında istinad edilən Müstəqillik Bəyannaməsində Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiası var. Rəsmi Bakı bu istinadın Ermənistan Konstitusiyasından çıxarılmasını tələb edir.**

Azərbaycanın qəti mövqeyi belədir ki, sülh müqaviləsinin imzalanması bundan sonra, yaxud sazişin tam razılaşdırılması ilə baş tuta bilər. "Hraparak" qəzeti yazıb ki, Ermənistan-Azərbaycan sülh müqaviləsinin razılaşdırılmamış iki bəndi ilə bağlı mövqelərdə yaxınlaşma var. Nəşrin iddiasına görə, iki bənd - üçüncü ölkənin qüvvələrinin Ermənistan-Azərbaycan sərhədindən getməsi və beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı iddiaların rədd edilməsidir. Birinci tələb Avropa İttifaqının (Aİ) mülki missiyası Ermənistan-Azərbaycan sərhədində yerləşdirilməzdən əvvəl irəli sürülüb. O zaman problem yalnız Rusiya sərhədçilərinə aid idi. Ermənistan hakimiyyəti buna etiraz etməyib. Amma Aİ müşahidəçiləri sərhədə gəldikdən sonra Azərbaycan bu tələbi yenidən formalaşdırıb. Ancaq nəşr qeyd edir ki, bu, məqamlar razılaşdırılsa belə, sənədin imzalanması çətindir.

> Paşinyan anlayır ki, Azərbaycanın tələblərini yerinə yetirmədən sülh müqaviləsini imzalamaq mümkün deyil

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini, siyasi şərhçi Samir Əsədli "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanın Ermənistanla sülh müqaviləsini imzalamaq üçün irəli sürdüyü əsas şərtlərdən biri Ermənistanın müstəqillik bəyannaməsinə istinadın Konstitusiyadan çıxarılmasıdır.** Ekspertin fikrincə, bu bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq iddialar yer alır və Bakı haqlı olaraq bunu sülh müqaviləsinin ruhuna zidd hesab edir: "Paşinyan anlayır ki, Azərbaycanın tələblərini yerinə yetirmədən sülh müqaviləsini imzalamaq mümkün deyil. Məhz bu səbəbdən də Paşinyan "Müstəqillik Bəyannaməsi"nin sülhün önündə əngəl olmasını bildirməklə kifayətlənməyib. Ermənistan Konstitusiyası müstəqillik bəyannaməsinə istinad edir. Həmin bəyannamədəki iddialar ləğv olunduğu halda məsələlərin mahiyyəti tamam dəyişir. Çünki bəyannamədə konkret olaraq əsassız olaraq göstərilir ki, Ermənistan keçmiş Dağlıq Qarabağla birləşib. Bu bəyannamə o vaxt Ermənistan parlamenti tərəfindən qəbul edilib. Referendum yolu ilə belə iddialar ora salınmayıb. İndiki halda Ermənistan parlamentində bəyannamənin bu "bəndlərinin" beynəlxalq hüquqa ziddi olduğu əsas gətirilib aradan qaldırıla bilər".

**S.Əsədli vurğulayıb ki, rəsmi İrəvan sülh müqaviləsinin imzalanmasını təmin etmək üçün erkən seçkilər və ardınca Konstitusiya dəyişikliyinə dair referendum keçirməyi də nəzərdən keçirir:** "Fikrimcə, Paşinyan ölkə daxilində referendum üçün hazırkı vəziyyəti qeyri-məqbul hesab edir. İndi Paşinyan da asan yola qaçır. O, ilk növbədə Ermənistanın müstəqillik bəyannaməsindəki həmin bəndləri aradan qaldırmağa çalışır. Daha sonra referendumla konstitusiyaya ediləcək dəyişikliklər fonunda həmin istinad da aradan qalxmış olacaq".

**İsmayıl Qocayev**

# Baş tutdu

## Azərbaycan COP tədbirlərinə öz imzasını atdı

**Noyabrın 11-dən Bakıda start götürmüş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı - COP29 işini uğurla davam etdirir.**




> Dünya birliyi iqlim dəyişikliklərinə qarşı mübarizədə yeni bir yol xəritəsi müəyyən edəcək

Amma artıq indidən noyabrın 23-dək davam edəcək dünyanın ən mötəbər tədbirini baş tutmuş saymaq olar. Heç şübhəsiz, Azərbaycanın toplantıya yüksək ev sahibliyi gerçəkləşdirdiyini də söyləmək üçün ciddi əsaslar var. Qətiyyətlə demək olar ki, COP29 müasir Azərbaycanın növbəti uğur hekayəsidir. Bunu şərtləndirən bir çox amillər var.

Azərbaycanın COP29-a ev sahibliyi etməsi bizim fəal rolumuzun beynəlxalq arenada qiymətləndirilməsi deməkdir. Bu uğur, Azərbaycanın yalnız regionda deyil, həm də qlobal miqyasda çevik diplomatiya və müsbət imic yaratdığının əyani sübutudur.

**"İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlının "Şərq"ə açıqlamasına görə, COP29 kimi böyük bir tədbirə Azərbaycanın ev sahibliyi etməsi son dərəcə mühüm və əlamətdar bir hadisədir. Onun sözlərinə görə, bu tədbirin Azərbaycanda keçirilməsi üçün bütün ölkələrin yekdil rəy verməsinin özü belə ölkəmizin beynəlxalq münasibətlərdəki mühüm rolundan və siyasi aktor kimi əhəmiyyətdindən xəbər verir:** "Tədbirin yüksək səviyyədə təşkil olunması COP29-da iştirak edən qonaqların, dünya liderlərinin və digər nüfuzlu dövlət rəsmilərinin rəylərindən də açıq şəkildə görünür. Azərbaycan bu tədbirə ev sahibliyi etməklə bəşəriyyəti narahat edən ekoloji problemlərin və iqlim dəyişikliklərinin həllinə dəstəyini və öz töhfəsini verir. Dünyanın ekoloji gündəliyinə sadiqliyini nümayiş etdirərək bu problemlə mübarizədə dünya ilə həmrəy olduğunu sübut edir. Ən vacib məsələlərdən biri maliyyələşmə ilə bağlıdır ki, COP29 çərçivəsində gedən müzakirələrdə dünya birliyi iqlim dəyişikliklərinə qarşı mübarizədə yeni bir yol xəritəsi müəyyən edəcək. Beləliklə, Azərbaycanın ev sahibliyi etdiyi COP29 sammiti ekoloji problemlərə qarşı mübarizədə yeni bir mərhələnin başlanğıcı olacaq".

**F.Şahbazlının sözlərinə görə, 196 ölkədən 70 mindən artıq qonağın iştirak etdiyi tədbir ölkəmizin beynəlxalq imicinin daha da yüksəlməsi baxımından son dərəcə əhəmiyyətlidir:** "COP29 həmçinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün qlobal bir tribunadır. Digər beynəlxalq tədbirlər kimi Azərbaycan COP tədbirlərinə də öz imzasını atdı və bu konfrans COP tarixində keçirilən ən uğurlu konfranslardan biri kimi yazılacaq".

**Şəymən**



# Uşaqlar arasında koronavirus davam edir

## İndiki dövrdə infeksiyalara qarşı immun sistemi də yaxşı deyil

**Uşaqlar arasında təhlükəli virus yayılıb. Xəzər TV bildirir ki, əsasən 5-15 yaş aralığında uşaqların çox yoluxduğu virus qrip kimi xəstəliklərlə oxşar simptomlarla müşayiət olunduğundan valideynlər arasında çaşqınlıq yarada bilir.**

Valideynlər son zamanlar azyaşlılar arasında yayılan virusu bəzən qızılca xəstəliyinə də bənzədirlər. Lakin qızılcadan fərqli olaraq bu virusdan qaynaqlanan səpgilər mərhələli şəkildə yox, tam yayılır.

**Vəziyyəti dəyərləndirən professor Adil Qeybulla "Şərq"ə açıqlamasında deyib ki, hazırda uşaqlar arasında təsdiq olunmuş "COVID19"-un "Omikron" ştamı aşkarlanıb:** "Yəni həmin azyaşlıların testləri müsbət çıxıb. Digər tərəfdən, kiçikyaşlılar arasında "rotavirus","entovirus", "influenza", qrip müşahidə edilir. Nəzərə almaq lazımdır ki, "influenza" virusuna qarşı Azərbaycan Respublikasının milli təqvimində vaksin nəzərdə tutulub. Lakin valideynlər övladlarını uzun müddət vaksinlərdən yayındırıblar. Hazırkı dövrdə həmin infeksiyalara qarşı immun sistemi də yaxşı deyil və viruslar geniş yayılıb. Təbii ki, bunlar laboratoriyalarda identifikasiya olunub xalqa bununla bağlı məlumat verilməlidir. Uşaqları virusdan necə qorumaq haqqında maarifləndirmə tədbirləri görülməlidir. Qeyd edim ki, Avropa ölkələrində "COVID"-in, "Omikron" ştamının mutasiya variantları xeyli artıb. Azərbaycanda da bu xəstəlikdən əziyyət çəkənlər var. Bir sözlə, epidemioloji vəziyyətin qarışıqlığı koronavirusun davam etməsinə bağlıdır".

**Nəzrin Vüqarqızı**

# ABŞ səfiri söylədi, İrəvan etiraf etdi

## Su ehtiyatlarının birgə idarə edilməsində Ermənistanla Azərbaycanın qeyri-hökumət təşkilatları səviyyəsində əməkdaşlıq var





**ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi Azərbaycan və Ermənistanın hidroloq və mühəndislərinin bölgədə sərhəd çaylarının su ehtiyatlarının vahid idarəetmə sxeminin yaradılması istiqamətində birgə işi barədə məlumat verib. Səfir bu işi dəstəklədiyini bildirib. Ancaq bundan dərhal sonra Ermənistan Xarici İşlər Nazirliyi xəbəri təkzib edib.**

Ermənistan XİN sərhədyanı su ehtiyatlarının idarə edilməsində Ermənistanla Azərbaycan arasında rəsmi əməkdaşlığın olmadığını bildirib. Ancaq Ermənistan XİN-in açıqlamasındakı sonrakı cümlə təmasların etirafına işarədir: "Bu mövzuda təmaslar yalnız iki ölkənin qeyri-hökumət təşkilatları səviyyəsində olub".

**Politoloq Elxan Şahinoğlu "Şərq"ə deyib ki, görünür, ABŞ səfiri çıxışında məhz bu təmasları nəzərdə tutub:** "O deməyib ki, su ehtiyatlarının birgə idarə olunması mövzusunda iki ölkənin rəsmiləri danışıqlar aparırlar. Səfirin sözlərinə görə, Vaşinqton təmasları dəstəkləyir. Bəs niyə Ermənistan XİN tərəfdaşı olan ölkənin səfirinin sözlərini dərhal təkzib etmək istəyib? Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayarkən, bölgənin ekologiyasına böyük zərər vurub. İndinin özündə Ermənistan Araz çayını çirkləndirir və rəsmi Bakı bu məsələni beynəlxalq təşkilatlar qarşısında qaldırır. Ermənistandakı müəssisələr və mədənlər çirkli sularını və tullantılarını Araz çayına axıdırlar. Ona görə bu problem də iki ölkə arasında müzakirə predmeti olmalıdır. Rəsmi İrəvan bilir ki, ətraf mühitin çirklənməsində məsuliyyəti var. Bu səbəbdən rəsmi danışıqlardan yayınmağa çalışır".

**İsmayıl**

# Varis məsələsi yeni hadisə deyil

## Müctəba Xameneinin ali rəhbər postuna gətirilməsi mümkündür

**İranda ölkənin 85 yaşlı ali dini lideri Əli Xameneinin varisi ilə bağlı müzakirələr yenidən aktivləşib. Mövzunun geniş müzakirəsinə səbəb İran Ekspertlər Şurasının üzvü və İsfahanın cümə imamı Əbülhəsən Məhdəvinin Xameneinin istəyi və tapşırığı əsasında dini liderdən sonrakı dövr üçün 3 nəfərin namizədliyinin təsdiqləndiyi haqda açıqlamasıdır.**





İran Teleqram kanallarının məlumatına görə, Donald Trampın ABŞ-də prezident seçilməsindən sonra Xamenei Ekspertlər Şurasının üzvlərini bir araya toplayıb və İranın gələcək ali rəhbəri olacaq varis məsələsini müzakirə edib. 88 nəfərdən ibarət Ekspertlər Şurası önündə çıxışında Xamenei açıq şəkildə bildirib ki, gec-tez varis məsələsi gündəmə gəlməlidir və şura üzvləri bu barədə indidən düşünsələr yaxşıdır. O, cəmiyyəti də buna yavaş-yavaş hazırlamaq lazım olduğunu deyib. Seçilən 3 nəfərin kimliyi açıqlanmır. Ancaq iranlı ekspertlər Xameneinin ali rəhbər postuna varisi kimi oğlu Müctəbanı hazırladığını iddia edirlər. Qeyd edək ki, Müctəba Xamenei ilə İranın Prezidenti Məsud Pezeşkianın münasibətlərinin o qədər də isti olmadığı haqda mediada məlumatlar da yayılıb.

**Orta Doğu Araşdırmalar Mərkəzinin sədri, politoloq Sədrəddin Soltan "Şərq"ə bildirib ki, İran konstitusiyasına əsasən, ali rəhbər Dini Ekspertlər Şurası tərəfindən seçilir:** "Dini Ekspertlər Şurası isə ümumxalq səsverməsi ilə müəyyən olunur. İndiki şura Ayətullah Seyid Əli Xameneinin adamlarından ibarətdir. Bu baxımdan, perspektivdə post-Xamenei dövründə Xameneinin varis elan edəcəyi şəxsi bu şura təsdiqləyə bilər. İndiki halda Əli Xamenei ölkədə avtoritetdir. Onu hakim komandadakı müxtəlif siyasi qruplar birləşdirici amil və qüvvə kimi qəbul edir. Eyni zamanda ordu və SEPAH da onu belə qəbul edirlər. O, heç bir təşkilatsız, siyasi qruplaşmasız təkbaşına bir avtoritetdir. Hakimiyyət xaricində müxtəlif dini liderlər, siyasi rəhbərlər Xameneini tənqid etsələr də, onunla birlikdə fəaliyyət də göstərirlər".

**Ekspert bildirib ki, Xameneinin varis məsələsi yeni hadisə deyil:**

"Bu məsələ az qala, 1989-cu ildən qüvvədədir. Vaxtilə Əli Əkbər Haşimi Rəfsəncani, Məhəmməd Hatəmi də bu vəzifəyə iddialı göstərilirdi. Nəzərə alsaq ki, Dini Ekspertlər Şurası Xameneinin tərəfdarlarından ibarətdir, o halda əgər Müctəba ayətullah səviyyəsinə qədər yüksələrsə, onun nəzəri olaraq Şura tərəfindən ali rəhbər postuna təyin olunması mümkündür. Amma qeyd etmək lazımdır ki, İranda hazırda Prezident Məsud Pezeşkiandır. Pezeşkian türkdür və onun da nüfuzundan istifadə etməklə, perspektivdə Müctəba Xameneinin ali rəhbər postuna gətirilməsi mümkündür. Ümumiyyətlə, İranda ali rəhbərlik institutu indiki şəraitdə rejimin qalması, yaşaması üçün vacibdir".

**Şahanə Ziyad**

# Əfqanıstan heç vaxt sivil dövlət olmayacaq

## Çünki ölkənin taleyi də, tarixi də qan bağı olmayan etnik burjuanın əlindədir

**Əfqanıstan torpaqlarında sabitlik və əmin-amanlıq inkişaf eləmiş dövlətlərdəki insan hüquqlarının pozulması kimidir, ikisinə də bu vaxta qədər çox az rast gəlmişik. Bu ölkənin hər daşında, torpağında böyük güclərin körüklədiyi dini qruplaşmaların vəhşətinin izləri var.**




Qan, göz yaşı, ölüm ölkənin dəyişilməsi xüsusiyyətinə çevrilib. Bu faciələri ortaya çıxaran ən böyük səbəb təhsilin yox səviyyəsində olması, dini fanatizmin və radikallığın kəskin şəkildə əfqan cəmiyyətinə sirayət etməsidir. Təhsilin yox səviyyəsinə düşməsi səbəbindən Əfqanıstan müasir dünyaya inteqrasiya etməkdə çətinlik çəkir.

**Əfqanıstan niyə sivil dövlət ola bilmir? Sualını şərh edən şair Aqşin Yenisey "Şərq"ə açıqlamasında deyib ki, ölkə etnik tərkibcə zəngindir, amma heç bir etnik qrup çoxluğu təşkil edəcək saya sahib deyil. Yəni mərkəzi gücü təmsil edən heç bir etnik baza yoxdur:** "Sivil dövlət üçün lazım olan mərkəzi etnik güc olmadığından Əfqanıstanı bir mərkəzdən idarə etmək heç vaxt mümkün olmayıb, heç vaxt da mümkün olmayacaq. Çünki ölkənin taleyi də, tarixi də qan bağı olmayan etnik burjuanın əlindədir. Əfqanıstan ABŞ modeli üzərində qurula bilərmi? Mümkün deyil, birincisi, ABŞ-dən fərqli olaraq təsir zonasındadır, ikincisi, ABŞ-ni quranlar özləriylə yeni qitəyə milli, dini heç bir dəyər aparmamışdılar, üçüncüsü, burada etnik kimliyi ilə problem yaradacaq hinduları əvvəlcədən təmizləmişdilər.

Bu gün Türkiyəni də bu hala salmaq istəyirlər. Atatürkün türk kimliyi üzərində yaratdığı mərkəzi gücə hücumlar buna görədir. Halbuki Atatürkün etdiyi etnik təəssübkeşlik deyil, milli dövlət modelinin ən vacib şərtinin icrasıdır.

Dövlət qalsın, amma mərkəzi etnik güc olmasın deyənlər gizli Əfqanıstan azarkeşləridir".

**Şəymən Bayramova**



# Rusiya qazandı

## Ukrayna ordusu artıq taqətdən düşüb

**Ukrayna Silahlı Qüvvələri Britaniya istehsalı olan "Storm Shadow" uzaqmənzilli raketləri ilə Rusiya ərazisinin dərinliklərindəki hədəflərə ilk dəfə zərbə endirib. Məlumatda qeyd olunub ki, müharibənin başlamasından 33 ay sonra Ukrayna Britaniyadan aldığı bu qabaqcıl silah növünü Rusiya ərazisini vurmağa tətbiq edib.**

Britaniya Nazirlər Kabinetinin sözçüsü məsələ ilə bağlı şərh verməyəcəklərini bildirib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, NATO qüvvələrinin Ukraynada peyda olması bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaq və alyansın Rusiyaya qarşı müharibəyə girməsi anlamına gələcək. Onun sözlərinə görə, NATO-da bunu anlamırlar: "Başa düşmürəm, bəlkə də, onlar anlamırlar ki, NATO kontingentinin Ukrayna ərazisində peyda olması alyansın ölkəmizə qarşı müharibəyə girməsi anlamına gələcək. Biz bu barədə onlara dəfələrlə demişik. Axı bu, təkcə Avropa üçün deyil, bütün dünya üçün fəlakətli nəticələrə gətirib çıxaracaq". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da xəbərdarlıq edib. Onun sözlərinə görə, ABŞ Prezidenti Co Baydenin Ukraynaya Rusiyanın dərinliyinə doğru Birləşmiş Ştatlar raketləri ilə zərbələrə icazə verməsi müharibənin miqyasını genişləndirə bilər: "Biz bu qərarı nə düzgün hesab edirik, nə də təsdiqləyirik. Ukrayna-Rusiya müharibəsi başlayandan bəri bunun daha çox silah, qan və göz yaşı ilə yox, sülh səyləri, xoşməramlılıq və diplomatiya ilə bitə biləcəyini düşünürük. İndi müharibəni alovlandırmaq və heç vaxt bitməməsini, hətta yayılmasını təmin etmək üçün bir həmlə kimi şərh edilə bilən bir addım cənab Baydendən gəldi. Onun bu addımı nəinki münaqişəni gərginləşdirəcək, həm də Rusiyanın daha böyük reaksiyasına səbəb olacaq. Cənab Putin ölkəsinin ballistik raketlərlə hücuma məruz qaldığı təqdirdə nüvə silahı ilə cavab verməyə imkan verən doktrinanı da təsdiqləyib. Bütün bunlar region və dünyanı yeni və böyük müharibənin astanasına gətirə bilər. "Məndən sonra tufan qopsun" anlayışı ilə heç yerə gedə bilməzsən". Prezident Ərdoğan Kiyev və Moskvadan gözləntilərini də açıqlayıb: "Bizim gözləntimiz və arzumuz odur ki, Ukrayna və Rusiya təxribatlara boyun əymədən, sakitliyi qoruyub saxlasınlar, sülhə diqqət etsinlər. Bu böyük səhvin əsasında yaradılan zəmində ən kiçik səhv və təxribatlara qapılmaq barıt çəlləyinə od atmaq kimi olacaq. Ona görə də hər kəsə diqqətli olmağı tövsiyə edirəm".

### Trampın hakimiyyətə gətirdiyi şəxslərin hamısı anti-Ukrayna mövqeyində olan şəxslərdir

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib ki, ABŞ birbaşa olmasa da, dolayı yolla Rusiya-Ukrayna müharibəsində ən vacib aktorlardan biridir. Ekspert bildirib ki, Rusiya-Ukrayna müharibəsi, əslində, ABŞ və Rusiya arasında gedən savaşdır: "Sadəcə olaraq bu müharibə Ukrayna ərazisində gedir. Demokratlar öz funksiyalarını sonadək yerinə yetirməyiblər. Bayden Administrasiyası üzərlərinə düşən funksiyanı axıra kimi icra etməliydi. Demokratlar düşünürdü ki, onlar hakimiyyətdə qalacaqlar və bu və ya digər yollarla müharibə uzanacaq. Rusiyanın daha da əldən düşməsi üçün addımlar atılacaq. Ancaq seçkilərdə Donald Tramp qalib gəldi və yanvarın 20-də, yəni andiçmə mərasimindən sonra hakimiyyəti ələ alacaq. Demokratlar və onların arxasında duran hərbi koorporasiyalar, müharibədə daha radikal mövqe tutan şəxslər düşündülər ki, artıq Rusiya ərazisinə ağır silahlarla, raketlərlə hücuma razılıq verməyin vaxtıdır. Ukrayna ordusu artıq taqətdən düşüb. Onlara impuls, ruh yüksəkliyi vermək lazımdır. Bu da ATACMS ballistik raketlərinin Ukraynaya göndərilməsi idi. Hərçənd, bu raketlər müharibənin aqibətini dəyişməyəcək".

**Analitik vurğulayıb ki, Trampın Baydenlə xarici siyasətdə mövqeləri eynidir:** "Həm Demokratların, həm də Respublikaçıların məqsədi Rusiyanı zəifləməkdir. Sadəcə buna yanaşmalarda tərəflər arasında fərqlər var. Hədəf Avropa ilə Rusiyanı yaxınlaşmağa qoymamaq, Moskvanı gücləndirməməkdir. Tramp açıq şəkildə deyir ki, onların əsas məqsədi Çini zəiflətməkdir. Belə təqdirdə ATACMS raketlərini alan Ukrayna ordusu ümid edirsə ki, ABŞ Rusiyanı həqiqətən tam taqətdən salmaq, zəiflətmək, parçalamaq istəyir, çox yanılırlar. Əksinə, Çinlə bağlı siyasətdə Rusiyanın mövqeyinin Avropadan daha çox nəzərə alınmasını gələcəkdə görə bilərik. Reallıq odur ki, ABŞ və Rusiya yanvarın 20-dən sonra düşmən olmayacaqlar, müttəfiq də olmayacaqlar. Sadəcə olaraq ABŞ Rusiyadan istifadə edərək Avrasiyada bu və ya digər şəkildə öz maraqlarını qorumağa çalışacaq".

**Z.Məmmədov əlavə edib ki, ABŞ daxilində dünyanın gələcəyi ilə bağlı müəyyən qruplar arasında mübarizə gedir:** "Trampın hakimiyyətə gətirdiyi şəxslərin hamısı anti-Ukrayna mövqeyində olan şəxslərdir. Onlar hər zaman Ukraynanın müdafiə edilməməsini, maliyyənin azaldılmasını tələb edənlər olub. Çünki onlar vaxtı ilə Demokratlardan Respublikaçılar partiyasına transfer olunan adamlardır".

**İsmayıl**

# Samir Şərifov baltanı kökündən vurub

## Cərimələrin mənimsənilməsi faktları varsa, mütləq araşdırılmalıdır



"DYP-də belə bir problemin yaşandığını zənn etmirəm, lakin AYNA publik şəxs olduğu üçün ödənilən cərimələrin birbaşa dövlət büdcəsinə daxil olmaması mümkündür"

**Azərbaycanda vətəndaşlara yazılan cərimələr bəzən dövlət büdcəsinə daxil olmur. Bunu maliyyə naziri Samir Şərifov Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, İnsan hüquqları və Regional məsələlər komitələrinin birgə iclasında bildirib.**

Onun sözlərinə görə, vəziyyəti düzəltmək üçün yeni proqram təminatı yaradılıb və cərimələrin düzgün ödənilməsinə nəzarət ediləcək: "Biz bu prosesə nəzarəti gücləndirəcəyik".

**İqtisadçı-ekspert Fuad İbrahimli "Şərq"ə açıqlamasında deyib ki, əgər doğrudan da belə faktlar varsa, bu, qəbuledilməz bir haldır.** Vətəndaşın ödədiyi cərimələr əgər birbaşa dövlət büdcəsinə daxil olmursa, demək, ödəndiyi hesabda qalır. Bu hesablara isə müvafiq qurumlar nəzarət edir. Məsələn, ən çox cərimələr AYNA və Dövlət Yol Polisi tərəfindən yazılır. DYP-də belə bir problemin yaşandığını zənn etmirəm, lakin AYNA publik şəxs olduğu üçün ödənilən cərimələrin birbaşa dövlət büdcəsinə daxil olmaması mümkündür. Əgər doğrudan da dövlət orqanlarında belə bir faktlar varsa, mütləq araşdırılmalı və həmin vəsaitlər dövlət büdcəsinə qaytarılmalıdır. Sözsüz ki, köçürülən vəsaitlərin təyinatı üzrə xərclənib-xərclənmədiyi ciddi müzakirə predmetidir".

**F.İbrahimlinin sözlərinə görə, internet əsrində, bütün qurumların rəqəmsallaşdığı bir dövrdə bu cür problemin olması həddindən artıq absurd və gülünc bir məsələdir.** Ayıbdır vallah, belə bir problem varsa, aidiyyəti qurumları yığıb iclas keçirin, problemi daxildə həll edin. Bu, parlament səviyyəsində müzakirə ediləcək məsələ deyil. Cərimələrin mənimsənilməsi ilə bağlı şübhələr varsa, görün indi müxtəlif təyinatlar üzrə ayrılan vəsaitlərlə neyləməzlər?!"

**Şəymən Bayramova**

# Pezeşkian əl qoydu, işə başlandı

## İran paytaxtını ölkənin cənub sərhədlərinə köçürür

**İran Prezidenti Məsud Pezeşkian ölkənin paytaxtının Tehrandan ölkənin cənub sərhədlərinə, Fars körfəzi sahillərinə köçürülməsi planları üzərində işləməyə başladıqlarını açıqlayıb. Ölkə mətbuatında əksini tapan xəbərə görə, Pezeşkian dünən Hatəmül Ənbiya Qərargahına səfəri zamanı etdiyi çıxışda keçmişdə müzakirə edilən paytaxtın Tehrandan köçürülməsi məsələsini bir daha gündəmə gətirib.**



Məhsa Mehdili: "Paytaxtın dəyişdirilməsi sadəcə sözdə qalacaq, çünki bu, İrana böyük iqtisadi böhran gətirər"

Tehranı paytaxt kimi buraxmağın bəzi səbəblərdən, xüsusilə də iqtisadi səbəblərdən qeyri-mümkün hala gəldiyini düşündüyünü dilə gətirən İran prezidenti bildirib ki, ölkənin paytaxtı Tehran həllolunmaz problemlərlə üzləşib. Nə etsək də, vaxt itiririk. Ona görə də biz ölkənin iqtisadi və siyasi mərkəzini cənuba və dənizə yaxın yerə köçürməliyik. Bizim onu daşımaqdan başqa çarəmiz yoxdur. Pezeşkian, birinci vitse-prezident Məhəmməd Rıza Arifə paytaxtın köçürülməsi planlarını təqib etmək üçün tapşırıq verildiyi məlumatını paylaşaraq deyib ki, bu məsələyə məhəl qoymasaq, gələcəkdə ölkənin ekoloji böhran və bir çox başqa problemlərlə üzləşməsinə səbəb ola bilər. Təxminən 20 milyon əhalisi olan İranın paytaxtının Tehrandan başqa şəhərə köçürülməsi planı ilk dəfə 2013-cü il dekabrın 25-də 290 yerlik parlamentdə 110 deputatın səsi ilə qəbul edilib. Plan çərçivəsində yaradılan şura paytaxt üçün "ən yaxşı alternativin harada olacağı" ilə bağlı araşdırmalar aparırdı. Bu məsələ ilə bağlı indiyədək heç bir addım atılmayıb.

**Türkiyədə yaşayan Güney azərbaycanlı siyasi şərhçi Məhsa Mehdili "Şərq"ə bildirib ki, İranda paytaxtın dəyişdirilməsi məsələsi Pəhləvi və molla rejimi dönəmində müxtəlif rəsmilər tərəfindən dilə gətirilib:**

"Hətta bununla bağlı fərqli planlar müzakirə olunub və müəyyən büdcə ayrılıb. Amma bu günə qədər sözügedən proses nəticə verməyib. Əsas problem ondan ibarətdir ki, bütün siyasi, iqtisadi və iş imkanlarının toplandığı yer Tehrandır. Ümumiyyətlə, yanlış siyasət nəticəsində İranda ədalətsiz dağılım mövcud idi. Buna görə də bütün iş imkanları Tehranda toplaşıb. Bunun Tehran üçün faydaları çox olsa da, İran üçün xeyli zərərlər verib. Tehran çox kirli, fərqli mədəniyyətlərin toplaşdığı, nəqliyyatın bərbad vəziyyətdə olduğu və bütün siyasi imkanların birləşdiyi mərkəzə çevrilib. Bunların hamısı şəhərə özüylə bərabər təhlükəsizlik və ədalətsizlik gətirib. Hesab edirəm ki, belə vəziyyətində paytaxtın dəyişdirilməsi məsələsi sadəcə sözdə qalacaq. Çünki paytaxtın dəyişdirilməsi İrana böyük iqtisadi böhran gətirər".

**Şahanə Ziyad**

# 2025-ci ildə bizi 2 böyük hadisə gözləyir

## Murov tunelinin, eyni zamanda Kəlbəcər-Ağdərə yolunun yenidən qurulmasından sonra yurdumuza qayıdış kütləvi xarakter alacaq

**Vətənimizin ən dilbər, səfalı və şəfalı bölgəsi, gözəlliklər məskəni olan Kəlbəcərin erməni quldurlarından azad olunmasının dördüncü ili tamam olur.**



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun igid əsgərlərinin şücayəti ilə qazanılan tarixi qələbəmizin əsas üstünlüklərindən biri də Ağdam, Kəlbəcər və Laçının hərbi əməliyyatlarsız azad edilməsi oldu. Lakin bu da məlumdur ki, erməni separatçıları işğal edib 30 ilə yaxın yaşadıqları yurd yerlərini, özlərinə məxsus olmayan, amma uzun illər məskunlaşdıqları evləri, meşələri yandıraraq, hətta məktəb binasına da od vuraraq tərk etdilər. Belə vandallıq aktı dünya tarixində görünməmişdi. Yurdun sahiblərinin kimliyini yurda dəyər verənlərin kimliyi sübut edir. İşğala son qoyulduqdan dərhal sonra Azərbaycan Prezidentinin təsdiq etdiyi "Böyük Qayıdış" dövlət proqramının icrasına başlandı və erməni vandallarının xarabalığa çevirdiyi şəhərlər, qəsəbə və kəndlər ötən 4 il ərzində dirçəldi, yeniləndi, gözəlləşdi. Və doğma sakinlərini qarşılamağa başladı. Kəlbəcər də həmçinin. Kəlbəcərin işğaldan azad olunmasından 4 il ötür. **Bu 4 ildə nə dəyişib, hansı yeniliklərə imza atılıb? Əslən Kəlbəcərin Başlıbel kəndindən olan və Başlıbel faciəsinin canlı şahidi olmuş yazıçı-publisist, "Qanlı Kaha" kitabının və "Başlıbel: mühasirə gündəliyi" sənədli filminin müəllifi Elxan Salahov son 4 ildə Kəlbəcərdə aparılan yenidənqurma, quruculuq işləri barədə "Şərq"ə danışdı:**

- Noyabrın 25-də Kəlbəcərin erməni işğalından azad olunmasının 4-cü ili tamam olur. Bu 4 il ərzində Kəlbəcər həsrətiylə, doğma yurduna qayıdışın həsrətiylə yaşayan 80 minə yaxın kəlbəcərlinin arzuları qanad açır. Bu 4 il ərzində ümidimiz, gələcəyə olan inamımız, yurdumuza qayıdış arzularımız artıq reallığa çevrilir. Bilirsiz ki, hazırda Kəlbəcərdə quruculuq işləri gedir. Yol infrastrukturu tamamilə yenilənib. İstər magistral yolların, istərsə də rayondaxili yolların tikintisi sürətlə davam edir. Növbəti ildə - yurdumuzun erməni separatçılarının işğalından azad edilməsinin 5-ci ildönümündə təxminən yaz aylarında Kəlbəcər şəhərinə ilk köç başlayacaq. Həmin ərəfələrdə Toğanalı-Murov-Kəlbəcər yolunda Murovun altı ilə çəkilən 12 km.lik tunel də istifadəyə veriləcək. Həmin yolun istifadəyə verilməsi Kəlbəcərə qayıdışın, köçün kütləvi xarakter alması üçün çox böyük imkanlar yaradacaq. Bilirsiniz ki, erməni quldurları Kəlbəcərin işğalı dövründə və 2020-ci ilin noyabrında Kəlbəcəri tərk edərkən görünməmiş vandalizm aktları törətdilər. Bütün infrastrukturu dağıtdılar, salamat qalan evləri yandırdılar, hansı ki o evlərdə yaşamışdılar. Hazırda o evlərin də yenidən qurulmasına başlanılıb. Bu 4 il ərzində biz 30 ilə yaxın düşmən tapdağında qalan doğmalarımızın qəbirlərini, şəhid məzarlarını xüsusi qurumlardan icazə almaqla ziyarət etdik. Qeyd edim ki, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı zamanı və Başlıbeldə törədilən qətliam zamanı şəhid olanların, 4 ay kahalarda mühasirədə qalan və ermənilər tərəfindən qətlə yetirilənlərin xatirəsinə həmin məzarlıqda memorial kompleks ucaldılacaq. Erməni silahlı dəstələri tərəfindən kütləvi qətliam törədilmiş kahaların da açıq muzeyə çevrilməsiylə bağlı layihələrin işlənib hazırlanması gözlənilir. Başlıbel faciəsi və mülki əhaliyə qarşı vandalizm aktlarını özündə əks etdirən dəlil və sübutlar ötən 4 il ərzində tərəfimizdən toplanıb. Həmin dəlil və sübutlar, həmçinin qətliama məruz qalanlara məxsus eksponatlar Başlıbel kəndinin bərpası zamanı kənddə qurulacaq muzeyə təqdim ediləcək, muzeydə saxlanacaq. Kəlbəcərə qayıdışın bir əlaməti də arıçılılq və heyvandarlıq təsərrüfatlarının yurda qayıdışıdır. Bu, Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə icra olunur. Fermerlər hər il yay mövsümündə təsərrüfatlarını yaylaqlara yerləşdirirlər. Həm məzarların bərpası, həm də fermerlərin öz yurduna qayıdışı Kəlbəcərə qayıdışının əsas göstəricilərindən biridir. 2025-ci ildə bizi 2 böyük hadisə gözləyir. Kəlbəcərə ilk köç və Murov tunelinin açılması. Kəndlərin bərpası, yenidənqurulması istiqamətində müəyyən işlər görülür. Hesab edirik ki, Murov tunelinin, eyni zamanda Kəlbəcər-Ağdərə yolunun yenidən qurulmasından sonra yurdumuza qayıdış kütləvi xarakter alacaq. Qarşıdakı 5-6 il ərzində kəlbəcərlilərin böyük əksəriyyəti yurda qayıdacaq. Allah ilk növbədə ordumuza, dövlətimizə güc-qüvvət versin. Biz yurdumuza qayıdışa görə Ali Baş Komandana, şəhidlərə, qazilərə, ordumuza borcluyuq.

**Məlahət Rzayeva**

# Bu hələ harasıdır?

## Bakıda nəqliyyatda yenilik olacaq

**Paytaxtda "Yaşıl şəhər nəqliyyatı" istiqamətində işlər görülür. Bunu Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib.**




"Bu tədbir dövrümüzün ən qlobal problemlərindən biri olan şəhər nəqliyyatının dekarbonizasiya istiqamətində böyük əhəmiyyət kəsb edir. Məqsədimiz dayanıqlı şəhər mobililiyini yaratmaqdır. Bununla biz həm insanların, həm də planetin ehtiyaclarını qarşılamaq üçün şəhərlərimizi, şəhər mobil sistemlərimizi dəyişməyi hədəfləyirik. Azərbaycanda şəhər nəqliyyatının yaşıllaşdırılması istiqamətində mühüm işlər görülüb. Bakı şəhər ictimai nəqliyyatında elektrik avtobuslarının cəlb edilməsi ilə mikro mobilik infrastrukturu inkişaf edir, avtobus zolaqları genişlənir".

# Dünya ölkələri gördülər ki...

## Bakı COP üçün ən uğurlu məkandır




### “İndidən qeyd edə bilərik ki, tədbir mühüm platforma kimi tarixdə yerini alacaq”

**Bakıda keçirilən COP29 tədbirinin müddəti uzadılıb. İlkin plana əsasən noyabrın 22-də yekunlaşmalı olan konfrans ayın 23-də də davam edəcək. Bu qərar tədbirin gündəliyindəki mühüm məsələlərin tam həll olunması və iştirakçı dövlətlərin fikir mübadiləsinin effektiv şəkildə davam etməsi üçün qəbul edilib.**

Xatırladaq ki, COP29 iqlim dəyişikliyi ilə bağlı qlobal problemlərin müzakirə edildiyi mühüm beynəlxalq platformadır. Tədbirdə dünya ölkələrinin nümayəndələri iştirak edir. Ötən gün COP29 prezidenti tərəfindən çağırılan ”Qurultay” iclası keçirilib və bir çox sənədlərin layihələri müzakirə olunub. COP29 prezidenti Muxtar Babayev tədbirin başa çatmasının planlaşdırıldığını nəzərə çatdırıb, aparılan müzakirələr barədə məlumat verib. Platformanın baş danışıqçısı Yalçın Rəfiyev COP29 çərçivəsində bəzi çətin məsələlərlə bağlı irəliləyiş əldə edildiyini, artıq təkliflərin sadələşdirilmiş toplusunu hazırladıqlarını söyləyib. Liderlər COP29-un iqlim fəaliyyətinin bütün sahələrində aydın siqnallar göndərməli olduğunu vurğulayıblar, iqlim maliyyəsinin əhəmiyyətinə diqqət çəkiblər. Eyni zamanda bundan öncə keçirilən COP-larda qəbul edilən sənədlərdəki çatışmazlıqlardan söz açılıb. COP29-da qəbul ediləcək qərarlar nəticəsində inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrin üzləşdikləri iqlimlə əlaqədar problemlərin həlli üçün iqlim maliyyəsi ayıracaqlarına inam ifadə olunub, müzakirəyə çıxarılan sənədlərlə bağlı təkliflər irəli sürülüb. Almaniya Xarici İşlər Nazirliyinin Beynəlxalq İqlim Fəaliyyəti üzrə Xüsusi Nümayəndəsi Cennifer Morqan sənədlərdə müəyyən edilmiş milli töhfələrdən razı qalmadıqlarını bildirib, sənədlərin Avropa İttifaqının narahatlıqlarını əhatə etməsini zəruri sayıb. BMT-nin baş katibi Antonio Quterreş də iqlim maliyyəsi məsələsində həqiqətə maksimum yaxınlaşacaqlarına inandıqlarını deyib. Bəyan edib ki, yekun razılığın əldə olunması üçün tərəflərin danışıqlara meyilli olması və mövqelərinə düzəlişlər etməsi vacibdir: ”Biz inanırıq ki, heç bir ölkə bu danışıqlardan nəticəsiz ayrılmayacaq. Mən danışıqçı olmasam da hiss edirəm ki, ölkələr indiki halda öz mövqeyində qalıb. Yekun razılaşmanın əldə olunması üçün hər kəs gücünü birləşdirməli və səyləri artırmalıdır. Elmi mülahizələr də onu deməyə əsas verir ki, 1,5 dərəcəlik iqlim hədəfinə nail olunmaqdan başqa çıxış yolu yoxdur. Beləliklə, reallıq dəyişməz olaraq qalır. Yəni tərəflərin yekun sənədin müddəaları üzrə razılığa gəlməsi son dərəcə önəmlidir”.

**Millət vəkili Vüqar İsgəndərov “Şərq”ə açıqlamasında deyib ki, COP29 tədbiri BMT-nin təşkil etdiyi dünyanın ən böyük, qlobal tədbirlərindən biridir. Deputat bildirib ki, COP29 yekunlaşmadan qonaqlar tərəfindən yüksək səviyyədə təşkil olunmuş tədbir kimi vurğulanması çox mühümdür:**

”Fransanın beynəlxalq səviyyədə təşkil etdiyi anti-Azərbaycan və anti-COP29 qarayaxma kampaniyası fiaskoya uğradı. İndiyədək keçirilən COP-larla müqayisədə COP29 təşkilinə görə ən yüksək səviyyədə hazırlanmış tədbir hesab olunur. BMT-nin baş katibi Antonio Quterreşin tədbirin təşkilatçılığı və gedişatı barədə xoş sözlər söyləməsi də Azərbaycanın beynəlxalq aləmdə nüfuzlu ölkə kimi təsdiqinin təzahürüdür. Ölkəmiz çox mötəbər bir tədbirə uğurla ev sahibliyi etməkdədir. 70 mindən artıq insanın Azərbaycana gəlməsi, tədbir çərçivəsində qlobal əhəmiyyətli mühüm mövzularla bağlı panellərin təşkil edilməsi, vacib məsələlərin müzakirəsi, Fransa və digər Qərb ölkələrinin müstəmləkələrinin, dənizaşırı dövlətlərin səslərini ucaltması ölkəmizin nüfuzunu daha da artırır. XXI əsrdə belə iyrənc müstəmləkə siyasətinin yenidən gündəmə daşınması, keçirilən aksiyalar dünyanın diqqətini bu məsələyə yönəltdi. Fransa və onun təsiri altında olan qüvvələrin genişmiqyaslı anti-Azərbaycan təbliğatı COP29-un yüksək səviyyədə keçirilməsinə zərrə qədər də olsa mənfi təsir göstərə bilmədi. Dünya ölkələri də gördülər ki, Bakı COP üçün ən uğurlu məkan olub. İndidən qeyd edə bilərik ki, COP29 tədbiri dünyanın iqlim problemlərinin müzakirə ediliyi, vacib qərarların qəbul olunduğu mühüm platforma kimi tarixdə yerini alacaq”.

**İsmayıl Qocayev**



# Ermənistan hələ də ağlını başına yığmayıb

## Silahlanma bu ölkəyə ağır fəlakətlər gətirəcək

**Ermənistan əlavə olaraq daha 78 ədəd ATAGS yedəkli artilleriya sisteminin alınması ilə bağlı danışıqlar aparır. Bu barədə ”Indian Defense Research Wing” (IDRW) məlumat yayıb. Bu, əvvəllər Ermənistana təhvil verilmiş, ölkənin müxtəlif landşaftlarında müstəsna imkanlar nümayiş etdirən ATAGS-in uğurlu fəaliyyətinin nəticəsidir.**

Altı haubitsadan ibarət ilk partiya Ermənistanda həm yüksək dağlıq ərazilərdə, həm də düzənliklərdə geniş sınaqdan keçirilib. Sınaqlar uzun məsafələrdə dəqiqliyi və yüksək etibarlılığı təsdiqləyib, bu da Ermənistan hakimiyyətini daha geniş miqyasda satın almağı düşünməyə vadar edib. Ermənistan Müdafiə Nazirliyindən bildirilib ki, ATAGS-ın yeni partiyasını təkmilləşdirmək üçün hərbçilərin istəklərini ifadə edib. Artıq silahın işini asanlaşdıran erməni dilində interfeys də var. Ermənistanın artilleriya sistemini ordusunun xüsusi tələblərinə uyğunlaşdırmaq üçün kiçik təkmilləşdirmələr təklif edəcəyi gözlənilir. Əlavə 78 ədəd ATAGS qurğusu üçün perspektiv saziş Ermənistan və Hindistan arasında artan müdafiə əməkdaşlığında növbəti mərhələdir. Qeyd edək ki, son illər Ermənistan Hindistanın silahlarının əsas alıcısına çevrilib.

**Hərbi ekspert Emil Həsənli ”Şərq”ə bildirib ki, Ermənistan hələ də ağlını başına yığmayıb:**

”Müharibədən sonra biz düşünürdük ki, Ermənistan reallığı qəbul edəcək. Amma Ermənistan əksinə olaraq Fransa, Hindistan kimi ölkələrdən silahlanmağa başlayıb. Həmin silahlar isə hücum silahlarıdır. Əvvəllər Ermənistan bəhanə gətirərək bildirirdi ki, müdafiə silahları alırıq. Ermənistanın qonşuluğunda Azərbaycan, Türkiyə, İran və Gürcüstan olmaqla dörd ölkə yerləşir. Ən böyük qonşuluğu isə Azərbaycanladır. Sual yaranır, Ermənistan sözügedən ölkələrin hansı ilə savaşa hazırlaşır ki, belə silahlara sahiblənir? Lakin Ermənistanın hərbi, iqtisadi, siyasi resursları həmin ölkələrin heç biri ilə müharibə aparmağa imkan vermir. Ermənistan uzun müddət Rusiyanın ən müasir silahlarını əldə etdi. O silahlanan zaman hesab edirdi ki, Azərbaycanın yeni ərazilərini işğal edə biləcək. Azərbaycan Ordusu isə qısa müddət ərzində torpaqlarını işğaldan azad etdi. Daha sonra bir günlük lokal xarakterli antiterror əməliyyatları nəticəsində Azərbaycan öz suverenliyini qazandı. Bu gedişlə Ermənistanın dövlət olaraq mövcudluğu sual altına düşəcək. Ermənilər Türkmənçay müqaviləsindən sonra, yeni bölgəyə köçürüldükdən sonra işğal, soyqırımı, separatizm siyasətini həyata keçiriblər. Ermənilərin belə addımları sonsuza qədər davam edə bilməz. Ermənistanın arxasında duranlar onun ağlını başına gətirməlidir. Çünki dəmir yumruq hər an yerindədir. Əks halda ermənilər gəldikləri yerə qayıdacaqlar”.

**Şahanə Ziyad**

# Daha dərsdən çox qaçan yoxdur

## Məktəblərdə şagird sayının az olması ailələrdə uşaq sayının azlığı ilə bağlıdır

**Təhsil sahəsinin ən böyük problemi komplektləşdirilmiş məktəblərin sayının az olmasıdır. Bu barədə Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında ”Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı elm və təhsil naziri Emin Əmrullayev danışıb. Nazir bildirib ki, 4400 məktəbimizin təxminən 1500-də şagird sayı 100-dən azdır:**

”Bu o deməkdir ki, sinifdə 7-8 şagird var. Məsələn, məktəbdə 1 dənə 6-cı, 7-ci, 8-ci sinif varsa, bu o deməkdir ki, o məktəbdə 7-8 saat kimya dərsi var. Çünki sinif yoxdur. Məsələn, Daşkəsən rayonunda bir şagirdə çəkilən orta xərc təxminən Bakıda olan özəl məktəbin qiyməti - 8500 manata qədərdir. Amma nəticə yoxdur. Əksinə, Bakıda 30-32 nəfər şagirdi olan məktəbdən biz daha yaxşı nəticə görürük. Önəmli məsələ müəllimin keyfiyyətidir. Sinifdə 1 uşaq olanda da, 30 uşaq olanda da dövlət 25 min manat pul xərcləyir. Bir uşağa o vaxt 25 min manat xərcləmək olar ki, orada nəticə var. Bizim belə 4 şagirdi, 4 sinfi, 32 müəllimi olan məktəblərimiz çoxdur. Uzun sözün qısası, rasionallaşmaya ehtiyac var, ağrılı proses olsa da, biz buna getməliyik”.




### "Əvvəllər ailələr minimum 3-4 uşaqlı idisə, indi bu say 1-2-dir. Şagird sayının azlığına gətirib çıxaran amil yeni doğulanların sayının azalmasıdır"

**Təhsil problemləri üzrə mütəxəssis Elçin Əfəndi ”Şərq”ə açıqlamasında qeyd etdi ki, 4400-dən çox orta təhsil müəssisəsində 1 milyon 600 min şagird təhsil alır, bölgələr üzrə, respublikanın müxtəlif ucqar yerlərində isə şagird sayı olduqca azdır. Elə məktəblər var, hətta ümumi şagird sayı 30-a çatmır. Belə olduğu halda, əlbəttə, tədbir alınmalıdır:**

44 kənd məktəbində ümumilikdə 20-30 şagird təhsil alırsa, onları vahid məktəbdə birləşdirmək olar. Təbii ki, ilk növbədə nəqliyyat məsələsini həll etmək, məktəb servisi təşkil etməklə. Çünki kəndlər, məktəblər bir-birindən xeyli aralı məsafədə ola bilir, bu halda şagirdlərin uzaq məsafələrə məktəbə gedib-gəlməsi problem yaradır. Amma nəqliyyat məsələsi, yol infrastrukturu düzələrsə, şagirdləri aparıb-gətirəcək avtobuslar olarsa, məktəbləri birləşdirmək mümkündür. Vahid məktəb də 150 şagirdin təhsil ala biləcəyi imkanlara sahib olmalıdır. Sinif otaqlarının sayı çox, hər bir şəraiti olmalıdır. Bu halda, bəli, bir neçə məktəb vahid bir məktəbdə birləşdirilə bilər.

**Ekspert son illərdə şagird sayı azlığının başqa səbəblərdən qaynaqlandığını da dedi:**

- Bunu məktəbdən yayınma halları ilə əlaqələndirə bilmərik. Çünki son illərdə bu tendensiya xeyli azalıb. İstisna hallar da çoxluq təşkil etmir. Hesab edirəm ki, səbəb ümumiyyətlə, ailələrdə uşaq sayının azlığıdır. Əvvəllər ailələr minimum 3-4 uşaqlı idisə, indi bu say 1-2-dir. Şagird sayının azlığına gətirib çıxaran amil yeni doğulanların sayının azalmasıdır. Bu da nəticədə şagird sayının azlığına gətirib çıxarır. 10 il əvvəl şagird sayı 150-130 min idisə, indi azalma müşahidə edilir. Bu şəraitdə rasionallaşma aparılmalıdır. Biz adambaşına maliyyələşməyə keçirik. Bir şagird üçün çəkilən xərc 8500 civarındadırsa və müəllim məktəbə 2 şagirdə dərs deməkdən ötrü gedirsə, dövlət ona əməkhaqqı ayırır, şagirdin təhsilinə də vəsait ayrılır. Uğurlu nəticə isə yoxdur. Bəzən şagird IX sinifdə məktəbdən çıxır. Ümumtəhsil bazasından peşə məktəblərinə gedənlər də olur. Belədə dövlətdən orta təhsilə ayrılan vəsait təyinatı üzrə sərf olunmur. Əgər dövlət xərc çəkirsə, bu yatırım dəyərləndirilməlidir. Bunun üçün də az şagird sayı olan məktəblər birləşdirilə bilər. Amma yaxın ərazidə olanları birləşdirmək lazımdır ki, bir neçə məntəqədən gələn uşaqlar vahid məntəqəyə gələ bilsin. Təhsilin müxtəlif pillələrində təhsil alanlarınsa eyni sinifdə təhsilə cəlb edilməsi doğru olmaz. 45 dəqiqəlik dərs saatını müəllim necə bölüşdürəcək, 20 dəqiqəni IV sinif şagirdlərinə ayıracaq, 25 dəqiqəni V sinif şagirdinə? Bu siniflərin tədris proqramı fərqlidir, onlar eyni sinifdə, eyni saat daxilində dərs keçə bilməz. Eyni təhsil pilləsində və eyni tədris proqramı üzrə təhsil alanlara eyni vaxtda dərs keçmək olar. Rasionallaşma zamanı bütün bu vacib məqamlar nəzərə alınmalıdır.

**Məlahət Rzayeva**

### "İrəvan hökuməti nəhayət anladı ki, vaxtı ilə Azərbaycan ərazisində mövcud olan ermənilər üzərindən təzyiq cəhdləri səmərəsiz olacaq"



# Bitdi bu iş...

## Ermənistan hakimiyyəti Qarabağdan gedən erməniləri qoynuna alır

**Qarabağdan gedən ermənilərə kütləvi vətəndaşlıq verilir. Ermənistan hakimiyyəti onların geri qayıtmaq istəmədiklərinə tam əmin olub.**



Ermənistan Daxili İşlər Nazirliyi məlumat yayıb ki, ermənilər sürətləndirilmiş qaydada Ermənistan vətəndaşlığı ala bilərlər. Vurğulanıb ki, bunun üçün İrəvandakı Miqrasiya və Vətəndaşlıq Xidmətinə, rayonlarda isə Daxili İşlər Nazirliyinin ərazi bölməsinə getmək, ərizə yazmaq və müvafiq sənədlər təqdim etmək lazımdır: ”Bundan sonra bir-iki ay ərzində sizə Ermənistan prezidentinin fərmanı ilə Ermənistan vətəndaşlığı verildiyi barədə qısa mesaj gələcək. Növbəti addım olaraq, Ermənistan Respublikasının vətəndaşı kimi yeni pasport almaq üçün ərizə yazmalısınız”.

**Siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu ”Şərq”ə açıqlamasında deyib ki, Azərbaycan dəfələrlə o vaxt ölkə ərazisində qalan ermənilərə vətəndaş statusunda mövcudluqlarını davam etdirə biləcəklərini söyləmişdi. Deputatın sözlərinə görə, ermənilər könüllü şəkildə Azərbaycan ərazilərini tərk edərək Ermənistana getdilər:**

”Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində o zaman qalmış ermənilərin böyük əksəriyyətində Ermənistan pasportları var idi. Onlar 30 il boyunca Azərbaycan ərazisində qanunsuz mövcud olmuşdular. Separatizmlə məşğul idilər. Amma antiterror əməliyyatını keçirdikdən sonra ermənilər könüllü şəkildə Azərbaycan ərazilərini tərk etdilər. Bakının çağırışlarını qiymətləndirə bilmədilər. Sözsüz ki, bu prosesin arxasında başqa qüvvələr dayanırdı. Məqsəd o idi ki, gələcəkdə bu amildən Azərbaycana qarşı təzyiq aləti kimi istifadə olunsun. Biz həqiqətən də, bunun belə olduğunu gördük. Həm Ermənistan rəsmiləri, həm də Avropa strukturları dəfələrlə Azərbaycana qarşı bu məsələdən təzyiq aləti kimi istifadə etdilər. Azərbaycan siyasi və diplomatik cəhətdən kifayət qədər güclü dövlətdir və öz haqlı mövqelərini qorumaq imkanlarına sahibdir”.

**E.Mirbəşiroğlu əlavə edib ki, bu məsələ üzərindən manipulyasiya cəhdləri olsa da, Azərbaycan tərəfi bu təzyiq alətinin təsirinin qarşısını ala bildi:**

”Azərbaycana qarşı spekulyasiyalar, təxribatlar cəhdi heç bir nəticə vermədi. Bu mənada Azərbaycan növbəti dəfə özünün haqlı mövqeyini qorudu. Ermənistan tərəfi reallıqları dərk edərək ona uyğun qərarlar vermək məcburiyyətində qaldı. İrəvan hökuməti nəhayət anladı ki, vaxtı ilə Azərbaycan ərazisində mövcud olan ermənilər üzərindən təzyiq cəhdləri səmərəsiz olacaq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı







# Uşaqlıq insan həyatının ən həssas dövrüdür

## Bu dövrdə uşaqların psixoloji, sosial və intellektual inkişafı düzgün yönləndirilməzsə, gələcəkdə ciddi problemlərə səbəb ola bilər

**Dünyaya göz açan körpənin ilk mühiti onun ailəsindən ibarət olur. Üç yaşından etibarən isə uşaqların həyatında növbəti sosial mühit, təhsilin başlanğıc pilləsi hesab olunan bağça əsas yer tutur. Burada uşaq ilkin biliklərlə yanaşı, həmyaşıdları ilə ünsiyyət qurmağı, güzəştə getməyi, ətraf aləmlə tanış olmağı, öz dünyasını kəşf etməyi öyrənir. Bunların düzgün öyrənilməsində bağçadakı pedaqoji heyət, psixoloq və loqoped xüsusi rol oynayır.**

Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) Səbinə Əliyeva parlamentdə uşaqların gələcəkdə sağlamlıq və sosial risklərə məruz qalma ehtimalının qarşısının alınması məqsədilə büdcədən maliyyələşdirilən dövlət uşaq bağçalarında və körpələr evi-uşaq bağçalarında "uşaq psixoloqu" və "erkən inkişaf üzrə mütəxəssis" ştatlarının əlavə edilməsini təklif edib.

S.Əliyeva bildirib ki, orta məktəblərdə mövcud psixoloq ştatlarının şagird sayına uyğun artırılması, habelə peşəkar və ixtisaslaşmış psixoloqların cəlb edilməsi vacibdir. Ombudsman eyni zamanda bir sıra təkliflərlə də çıxış edib: "Aztəminatlı ailələrin və həssas qrupların uşaqlarına məktəblərdə dərsliklərin digər çalışma və köməkçi vəsaitlərlə komplekt şəkildə dövlət hesabına verilməsi yaxşı olardı. Həmçinin körpələr evi, bağça-körpələr evi və uşaq evlərində qida normalarının müasir standartlara uyğunlaşdırılmalıdır.

Bundan başqa, ixtisaslaşdırılmış tibb müəssisələrində narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicəsinin təşkili məqsədilə müvafiq şöbə yaradılmalıdır".

**ADPU-nun Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin direktoru Kamran Əsədov hesab edir ki, uşaq bağçalarında psixoloq və erkən inkişaf üzrə mütəxəssislərin olması, erkən yaş dövründə uşaqların sağlam inkişafını təmin etmək baxımından çox vacibdir. Ekspertin sözlərinə görə, bu mərhələ insan həyatının ən həssas dövrüdür və bu dövrdə uşaqların psixoloji, sosial və intellektual inkişafı düzgün yönləndirilməzsə, gələcəkdə ciddi problemlərə səbəb ola bilər:** "Hazırda ölkədə 1674 dövlət məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Təxminən 100 min uşaq məktəbəqədər təhsil müəssisələrində təlim-tədrisə cəlb edilib. Uşaqlarımızın təlim-tərbiyəsi ilə uşaq bağçalarında 18 minə yaxın pedaqoji tərbiyəçi və texniki heyət məşğul olur. Bu, ölkə ərazisində ümumi uşaqların yalnız 25 faizi deməkdir. Yəni ölkə ərazisində uşaq bağçaları və körpələr evinin sayı, onların uşaq tutumu ümumi uşaqların yalnız 25 faizə qədərini qarşılamağa imkan verir. Bu, o qədər də böyük rəqəm deyil. Buna baxmayaraq, bağçalarda pedaqoji heyətin bilik və bacarıqları da elə yüksək səviyyədə deyil. Paralel olaraq uşaq bağçalarında digər xidmətlər - psixoloq, həkim xidmətləri də qənaətbəxş deyil".

K.Əsədov hesab edir ki, Azərbaycanda bu sahədə mövcud vəziyyəti təhlil etdikdə, ciddi çatışmazlıqların olduğunu görmək mümkündür. Onun sözlərinə görə, uşaq bağçalarında psixoloji xidmətlərin və erkən inkişaf proqramlarının məhdud olması həm uşaqların, həm də valideynlərin inkişaf ehtiyaclarına tam cavab vermir: "Hazırda Azərbaycanda fəaliyyət göstərən uşaq bağçalarının əksəriyyətində psixoloq və ya erkən inkişaf üzrə mütəxəssis ştatı yoxdur. Bu, həm dövlət bağçalarında, həm də özəl bağçalarda müşahidə olunan ümumi bir problemdir. Nəticədə, uşaqların sosial, emosional və intellektual inkişafının fərdi izlənməsi və dəstəklənməsi sistematik şəkildə aparılmır. Psixoloji və erkən inkişaf dəstəyi olmadan, bağça mühitində bəzi uşaqların adaptasiya problemləri yaşadığı və onların potensialının tam reallaşdırıla bilmədiyi qeyd olunur. Statistik məlumatlara əsasən, Azərbaycanda 2023-cü ildə uşaq bağçalarının sayı 1800-dən bir qədər çoxdur, lakin bu bağçaların yalnız cüzi bir hissəsində psixoloq və ya erkən inkişaf mütəxəssisləri fəaliyyət göstərir. Məsələn, Bakı şəhərindəki bəzi özəl bağçalar bu xidmətləri təmin etsə də, dövlət bağçalarında bu resurslara çıxış çox məhduddur. BMT-nin Uşaq Fondunun (UNICEF) məlumatlarına əsasən, erkən yaş dövründə inkişafın düzgün idarə olunmaması gələcəkdə uşaqların akademik performansında və sosial inteqrasiyasında ciddi problemlərə gətirib çıxarır.

Dünya təcrübəsinə baxdıqda, inkişaf etmiş ölkələrdə uşaq bağçalarında psixoloq və erkən inkişaf mütəxəssislərinin fəaliyyəti geniş şəkildə təmin edilir. Məsələn, Finlandiyada bağçalarda hər 20-25 uşağa bir psixoloq və bir erkən inkişaf mütəxəssisi təyin olunur. Onlar uşaqların emosional və sosial inkişafını izləyir, təlim proqramlarını fərdi ehtiyaclara uyğun tənzimləyir.

Almaniyadakı bağçalarda psixoloji xidmətlər dövlət tərəfindən maliyyələşdirilir və uşaqların davranış, nitq və emosional inkişafı üzrə xüsusi proqramlar tətbiq olunur. ABŞ-də bağçalarda psixoloji dəstək sistemi erkən müdaxilə proqramları çərçivəsində həyata keçirilir. Burada uşaqların fərdi bacarıqlarını aşkar etmək və onların inkişafında maneələri aradan qaldırmaq üçün xüsusi qruplar fəaliyyət göstərir. Kanadada bağçalarda erkən inkişaf üzrə mütəxəssislər uşaqların tədrisə hazırlığını təmin etmək üçün çalışır. Eyni zamanda valideynlərlə sıx əməkdaşlıq həyata keçirilir və ailə dəstəkləri proqramları təşkil edilir. Bu təcrübələr göstərir ki, erkən müdaxilə və inkişaf dəstəyi uşaqların gələcək həyatlarında mühüm fərq yaradır. Erkən yaş dövründə inkişaf problemlərinin aşkarlanması və onların həlli uşaqların məktəb və cəmiyyətdə daha yaxşı uyğunlaşmasını təmin edir".

**Ekspertin sözlərinə görə, Azərbaycanda uşaqların fiziki-mənəvi inkişafına töhfə vermək məqsədilə psixoloq və erkən inkişaf mütəxəssislərinin ştatlarının yaradılması, dövlət bağçalarında bu mütəxəssislərin mövcudluğu qanunvericiliklə təmin edilməli və bunun üçün xüsusi təlim proqramları təşkil edilməlidir:**

"Bağçalarda psixoloji və erkən inkişaf xidmətləri üçün xüsusi resurslar ayrılmalı, həmçinin bu sahədə çalışan mütəxəssislər üçün rəqabətqabiliyyətli maaşlar təmin edilməlidir. Eyni zamanda uşaqların inkişafına psixoloji dəstəyin əhəmiyyəti barədə valideynlərə məlumat verilməli, onların bu prosesə fəal iştirakını təmin etmək üçün proqramlar təşkil edilməlidir. Pilot layihələrin həyata keçirilməsi də məqsədəuyğundur. Müxtəlif regionlarda seçilmiş bağçalarda psixoloji və erkən inkişaf dəstəyinin təmin olunması üçün pilot layihələr həyata keçirilərək onların nəticələri qiymətləndirilməlidir. Bir sözlə, Finlandiya, Almaniya və digər ölkələrin müvafiq modelləri öyrənilməli və yerli şəraitə uyğunlaşdırılaraq tətbiq edilməlidir".

K.Əsədov onu da qeyd edib ki, uşaq bağçalarında psixoloq və erkən inkişaf mütəxəssislərinin olması uşaqların təhsil prosesinə hazırlığını artırmaqla yanaşı, onların emosional və sosial sağlamlığını qorumaq üçün zəruri bir addımdır. Bu istiqamətdə görülən tədbirlər yalnız fərdi səviyyədə deyil, həm də cəmiyyətin ümumi rifahına müsbət təsir göstərə bilər. Azərbaycanın bağça sistemi bu islahatları həyata keçirməklə gələcək nəsillərin daha sağlam və uğurlu inkişafına zəmin yarada bilər.

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Problemi qismən həll etmək olacaq

## Əhalinin sıx yerləşdiyi ərazilərdə bağçaların sayı artırılmalıdır



**Elm və təhsil naziri Emin Əmrullayev məktəbəqədər təhsilə qəbul prosesində bəzi dəyişikliklər edilə biləcəyini deyib.**

Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsində elm və təhsil naziri deyib ki, hazırda bir uşağın 1 il məktəbəqədərə getməyi 4200 manata başa gəlir.

**Emin Əmrullayev qeyd edib ki, ölkədə hər il orta hesabla 120 min uşaq doğulur:**

"Məktəbəqədər təhsil müəssisələrinə qəbul növbəli şəkildə aparılır. Hazırda məktəbəqədər müəssisəyə qəbul ananın işləyib-işləməməsini nəzərə almır. Başqa sözlə, heç də bütün hallarda işləyən qadınlar öz övladlarını məktəbəqədər müəssisəyə qoya bilmir. Bu, islahatın növbəti mərhələsi ola bilər. Həm ailənin sosial-iqtisadi vəziyyəti, həm də ananın işləyib-işləməməsi məsələsini nəzərə ala bilərik. Hazırda kim qeydiyyata birinci gəlir, sistem onu qeydiyyata alır. 100 yer varsa, ilk gələn 100 adam qeydiyyata düşür, 101-ci adam öz növbəsini gözləyir. Burada başqa məqam şəhər və kənd yerləri məsələsidir. Kənd yerlərində bizim məktəbəqədər müəssisələrdə boş uşaq yerlərimiz var. Məsələn, 10 min belə boş yer bar. Ancaq Bakı şəhərində 30 min insan boş yer gözləyir".

**Nazirin fikirlərinə münasibət bildirən "məktəb guşəsi" saytının rəhbəri, təhsil eksperti Məzahir Məmmədli "Şərq"ə deyib ki, Elm və Təhsil Nazirliyi məktəbəqədər təhsil müəssisələrinə qəbul qaydalarının asanlaşması ilə bağlı qrand müsabiqəsi elan etdi:**

"Bununla dövlətlə yanaşı, özəl bağçalara da qəbul aparıla biləcək. Bu, artıq Elm və Təhsil Nazirliyinin ayırdığı qrand hesabına başa gələcək. Ödənişlərin bir qismi valideynlərin, digəri dövlət hesabına ödəniləcək. Bu üsulla problemi qismən həll etmək olacaq. Bildiyiniz kimi, bağçalar keçən ilə qədər icra hakimiyyətlərinin tabeliyində olub. Amma Elm və Təhsil Nazirliyinin tabeliyinə keçdikdən sonra ciddi struktur dəyişikliyinə səbəb olan islahatlar aparılır. İndi isə müəllimlərin işə imtahan vasitəsilə götürülməsi və sertifikasiyası gündəmdədir. Bu kimi nüanslar keyfiyyətin artırılmasına hesablanıb. Lakin hazırda Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin ümumi əhalinin hansı hissəsini təşkil etməsi sual altındadır. Çünki həmin rəqəm 20 faizi keçmir. Fikrimcə, ölkədə, xüsusilə əhalinin sıx yerləşdiyi ərazilərdə bağçaların sayı artırılmalıdır. Nazirin də dediyi kimi, elə kənd və qəsəbələr var ki, bağçalarda kifayət qədər boş yer var. Bu da kənd əhalisinin iş dalınca paytaxta yerləşməsi ilə əlaqədardır. Nəticədə rayonlarda boşluq, şəhərdə isə sıxlıq yaranır. Bunun qarşısını almaq üçün kompleks tədbirlərə ehtiyac var. Məsələn, həmin yerlərdə sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına dair addımlar atılmalıdır.

**Nəzrin Vüqarqızı**

# Rusiya Ukraynanı əbədiyyən itirə bilər

## Kreml son ana qədər nüvə silahından istifadə etməyəcək, əvəzində ballistik raketlərdən istifadə etməyə başlayıb

**"Rusiya-Ukrayna müharibəsi yeni fazaya daxil olub. Xüsusilə baş verən son iki hadisə həm diqqət çəkir, həm də narahatlıq yaradır". Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Turan Rzayev deyib.**

Onun sözlərinə görə, ABŞ, Fransa və Britaniya Ukraynaya ATACMS və digər raketlərdən istifadəyə icazə verməsi və Prezident Vladimir Putinin Rusiyanın nüvə doktrinasını təsdiq etməsi vəziyyəti gərginləşdirən əsas amillərdir:

"Ukrayna ordusu artıq ATACMS və Britaniya istehsalı "Storm Shadow" uzaqmənzilli raketləri ilə Rusiyanın dərinliklərinə zərbə endirib. Rusiya isə nüvə silahından istifadə edəcəyinə dair xəbərdarlıq edir.

ABŞ, Fransa və Britaniyanın Ukraynaya verdikləri silahlardan istifadəyə razılıq verməsi onların birbaşa müharibəyə qoşulması mənasına gəlmir. Yəni müharibə yenə Rusiya və Ukrayna arasında gedir. ABŞ, Fransa və Britaniyanın bu addımı atmaqda həm kollektiv, həm də fərdi maraqları var. Lakin əsas məsələ "tamam, yoxsa davam" sualına cavab tapmaqdır.

Kiyev uzun müddət idi, ATACMS və digər bəzi silahlardan istifadəyə dair qoyulan məhdudiyyətlərin aradan qaldırılmasını istəyirdi. Hətta Rusiyaya effektiv cavab zərbəsi vura bilməmələrini də bununla əsaslandırırdılar.



Ukraynanın Rusiyadakı hərbi hədəfləri Qərbin uzaqmənzilli raketləri ilə vurmağa başlaması ilk vaxtlar effekt verəcək. Lakin bir müddət sonra rus ordusu bu hücumları da dəf edəcək və daha ağır cavab zərbəsi vuracaq. Bunu göstərən məqam isə Prezident Vladimir Putinin Rusiyanın nüvə doktrinasını təsdiq etməsidir.

Fikrimcə, Rusiya son ana qədər Ukraynaya qarşı nüvə silahından istifadə etməyəcək. Kremlin mətbuat katibi Dmitri Peskovun da dediyi kimi, nüvə silahından istifadə Rusiya tərəfindən son çarə hesab olunur. Rusiya həmişə nüvə silahına çəkindirmə vasitəsi kimi baxıb.

Nüvə silahından istifadə həm xərcli, həm də riskli addımdır. Söhbət tələfatın miqyasının böyük olmasında deyil, zərbənin ətraf ölkələrə ekoloji zərərindən gedir. Rusiyanın ehtimal nüvə zərbəsi ən yaxşı halda Çernobıl fəlakəti ilə eyni miqyasda faciə ilə nəticələnə bilər".

**T.Rzayev deyib ki, Moskva müharibəni Ukrayna hakimiyyəti ilə apardığını, xalqı ilə problemi olmadığını deyir. Belə bir hücumdan sonra bu arqument sıradan çıxacaq. Yəni Rusiya Ukraynanı əbədiyyən itirə bilər:**

"Moskva son ana qədər nüvə silahından istifadə etməyəcək. Lakin əvəzində ballistik raketlərdən istifadə etməyə başlayıb.

Rusiya Trampın ABŞ prezidenti səlahiyyətini icra etməyə başlamasını gözləyir. Yəni bu vaxta qədər radikal qərar verməsi real deyil. Putin Trampla ortaq məxrəcə gələ biləcəyini düşünür. Ən azından tərəflər arasında atəşkəs imzalana bilər. İndiki məqamda bu həm Rusiyaya, həm də Qərbə lazımdır.

O ki qaldı Üçüncü Dünya müharibəsinə, hələlik bundan danışmaq üçün tezdir. Ümumiyyətlə, klassik mənada Üçüncü Dünya müharibəsinin başlayacağını gözləmirəm. Lakin hazırda dünya miqyasında "müharibələr zənciri" var və bunu ən yaxşı halda "kölgə Üçüncü Dünya müharibəsi" adlandırmaq olar. Üçüncü Dünya müharibəsindən danışmağımız üçün ən azından bundan öncəki iki müharibəyə nəzər yetirməli, niyə "dünya müharibəsi" dediyimizi analiz etməliyik. Hətta Rusiya Ukraynada nüvə silahından istifadə etsə belə, bu, qeyd olunan tərzdə qlobal müharibəyə səbəb olmayacaq. Çünki təcrübə göstərir ki, bu tipli silahlar istifadə edildikdən sonra müharibə başlamır, əksinə, bitir".

**Şəymən Bayramova**

# Kişilərə zorakılıq edən o qədər qadınlar var ki...

## Azərbaycanda məişət zorakılığı və gender bərabərliyi statistikası obyektiv aparılmır



**"Azərbaycanın sosial-iqtisadi inkişaf gündəliyi qadınların iqtisadi imkanlara çıxışını yaxşılaşdırmağa yönəlib. BMT təşkilatları ilə əməkdaşlıq çərçivəsində yaradılmış qadın resurs mərkəzlərinin davamlılığı artıq dövlət komitəsi tərəfindən təmin edilir".**

Bunu "Gender Bərabərliyi Günü. Şəffaflıqda Gender" mövzusunda keçirilən tədbirdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib.

Onun sözlərinə görə, Azərbaycanda əmək qabiliyyətli əhalinin 48 faizi kənd təsərrüfatında çalışır ki, onların da 49 faizi qadınlar, 51 faizi isə kişilərdir:

"Xüsusilə qadınlar üçün kənd təsərrüfatında çalışanları dəstəkləmək və həssas gender tədbirləri həyata keçirmək milli prioritetlərdən biridir. Ölkədə yaşıl kənd təsərrüfatını dəstəkləmək üçün 2020-2023-cü illəri əhatə edən Birgə Fəaliyyət Planı icra edilib. Bu, plan mənfi ekoloji təsirləri azaltmaq məqsədini daşıyan çoxölçülü tədbirlərdən ibarətdir. COP29 çərçivəsində gender bərabərliyini iqlim siyasətinin əsas prinsipi etmək öhdəliyimizi təsdiq edirik. İqlim maliyyələşdirilməsində həssas gender modellərin tətbiqi iqlim tədbirlərində gender bərabərliyini dəstəkləyəcək. Bu təşəbbüsləri dəstəkləmək gender bərabərliyini iqlim dəyişiklikləri siyasətimizin ayrılmaz bir hissəsinə çevirməyə imkan verəcək və birlikdə daha güclü və daha inklüziv bir cəmiyyət qurulmasına töhfə verəcəyik".

**Hadisə ilə bağlı fikirlərini bölüşən sosioloq Üzeyir Şəfiyev "Şərq"ə söyləyib ki, Azərbaycanda gender problemi yoxdur:**

"Azərbaycan gender bərabərliyi ilə bağlı ciddi addımlar atıb. Azsaylı ölkələrdənik ki, Ailə Qadın Uşaq Komitəsi fəaliyyət göstərir. Bu komitənin fəaliyyəti bütün coğrafiyada funksional hala gəlib. Eyni zamanda Azərbaycanda gender bərabərliyi haqqında qanun var. Bu qanun yüksək səviyyədə fəaliyyət göstərir. Qadınların hüquqları, məşğulluq məsələsi ilə bağlı şüarlar qaldırmışdılar ki, guya bəzi iş yerləri qadınlara qadağandır. Bunların hər biri qadınların həyatı üçün pozitiv diskrimnasiyadır. Yəni elə iş sahələri var ki, onlar qadınların sağlamlığına ziyan gətirdiyi üçün qadınlar orada işləyə bilməzdi. 630-dan çox qadın üçün qadağan edilmiş iş sahəsi var idi. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan son İKT imkanlarından istifadə edərək qadınların həmin sahələrdə işləmək imkanını təhlil etdi ki, qadağan edilmiş iş yerlərində işləyə bilərlər. Bununla da, 630 qadağan edilmiş iş sahəsi endirildi 204-ə. Ağır metallurgiya, radioaktiv və digər ağır sahələr var ki, orada qadınların işləməsi sağlamlıqlarına ziyan vuracaq. Təhsil sahəsinin 80, səhiyyənin 80, elm sahəsinin 60 faizdən çoxunda qadınlar üstünlük təşkil edir. Eyni zamanda qərar qəbuletmə orqanlarında, parlamentdə 20 faizdən çox qadınların təmsilçiliyi var. Vitse prezident, spiker, komitə sədrləri xanımlardır. Yəni qadınlarımız qərar qəbuletmə orqanlarında yüksək səviyyədə təmsil olunurlar. Lakin Azərbaycan və Azərbaycan kimi ölkələrə xarici güc mərkəzləri aqressiv feminizm dalğası ilə, yalançı gender bərabərsizliyi adı altında təzyiqlər edir. İstəkləri qadın-kişi qarşı durması, ailə dəyərlərini məhv etmək, boşanmaları təşviq etmək, qadın azadlığı adı altında qadınları kişilərə qarşı doldurmaqdır. Azərbaycan gender bərabərliyinə görə digərlərinə örnək olan ölkələrdən biridir. Digər tərəfdən statistikada göstərirlər ki, kişilər qadınları öldürüb. Unudurlar ki, neçə qadın kişilərə qarşı emosional zorakılıq tətbiq edib. Çünki Azərbaycan kişisi bu məsələləri efirlərə, sosial şəbəkələrə və məhkəmələrə danışmır. Azərbaycanda məişət zorakılığı və gender bərabərliyi statistikası obyektiv aparılmır".

**Fidan Həmişəyeva**

# Məhdudiyyətlər tətbiq olunmalıdır

## Gələcəyimiz olan uşaqları sosial şəbəkələrdə itiririk

**Avstraliya hakimiyyəti sosial şəbəkə istifadəçilərinin yaşını məhdudlaşdıran, 16 yaşdan kiçik şəxslərin bu şəbəkələrə girişini qadağan edən qanun qəbul edib.**

Bu barədə Baş nazir Antoni Albaneze müvafiq bəyanatla çıxış edib.

Hökumət başçısı qeyd edib ki, Avstraliya sosial media istifadəçiləri üçün minimum yaş həddini 16 yaş müəyyən edən qanun qəbul edib.

"Qanun hazırkı onlayn təhlükəsizlik qanunvericiliyinə dəyişikliklər edir ki, bu da gənc avstraliyalıların inkişafının kritik mərhələlərində onların daha etibarlı müdafiəsini təmin edəcək", - Baş nazir bildirib.

Albaneze həmçinin qeyd edib ki, Avstraliya hakimiyyəti texnologiya şirkətləri və sosial şəbəkə administrasiyalarından 16 yaşdan kiçik istifadəçilərin hesab və səhifə yaratmasının qarşısını almaq üçün ağlabatan tədbirlər görmələrini tələb edəcək.

"Hökumət yeni qanunu pozduğuna görə sərt cəzalar tətbiq edəcək və rəqəmsal platformalar 49,5 milyon Avstraliya dollarına qədər (32 milyon dollardan çox) cərimə ilə üzləşəcək", - o qeyd edib.

Yeni qaydalar "Snapchat", "TikTok", "Instagram" və "X" sosial şəbəkələrini əhatə edəcək. Bununla belə, "Google Classroom" və "YouTube", həmçinin mesajlaşma vasitələri və onlayn oyunlar uşaqlar üçün əlçatan olacaq. Maraqlıdır, Azərbaycanda belə bir qanun qəbul edilsəydi, mənzərə necə olardı?

**Sosioloq Mətanət Məmmədova "Şərq"ə bildirib ki, Avstraliya parlamenti çox möhtəşəm qanun layihəsi qəbul etməklə dünyaya nümunə olacaq bir addım atıb:** "Uşaqların sosial mediadan asılı bir vəziyyətə düşdüyü müasir dövrdə belə bir qanun layihəsinin hazırlanması və müzakirə edilməsi günün ən vacib məsələsidir. Çünki artıq dünya gələcəyimiz olan uşaqları sosial şəbəkələrdə itirir. Bu şəbəkələr onların tərbiyəsinə, əxlaqına, inkişafına, gələcəyinə böyük zərbələr vurur. Bu, həyəcan təbilinin çalınması vacib olan nüansdır və tək Avstraliya yox, bütün dünya ayağa qalxmalı, gələcəyimizi xilas etməlidir.



**"Ümid edək ki, milli dəyərlərinə, əxlaq kodeksinə sadiq olan ölkəmizdə də bu qərar dəstəklənəcək və bu istiqamətdə müəyyən addımlar atılacaq"**

Fikirləşəndə ki, uşaqlar 24 saatın çox hissəsini sosial şəbəkə və mediada keçirir, onların nə sağlamlığından, nə də şüurlu inkişafından söhbət gedə bilər. Dəfələrlə sosial şəbəkələrdə uşaqların aldadılması, yoldan çıxarılması, onların bədənlərindən istifadə halları ilə qarşılaşırıq. Bütün bunların qarşısının alınması üçün ən uyğun yol yaş məhdudiyyətinin tətbiq edilməsi olar.

Düşünürəm ki, öz milli dəyərlərinə, əxlaq kodeksinə sadiq olan ölkəmizdə də bu qərar dəstəklənəcək və yaxın gələcəkdə sözügedən istiqamətdə müəyyən addımlar atılacaq.

Bəli, cərimə tətbiqi bu sahədə ciddi dönüş yarada bilər. Belə olan halda valideyn də, digər məsul şəxslər də uşaqları sosial mediadan müvafiq yaş həddinə kimi qorumalı olacaq. Bu da təbii ki, öz müsbət təsirini göstərəcək".

**Nəzrin Vüqarqızı**

# Səhərlər bu qarışığı içən...

## Həkim üzü görməyəcək



(Əvvəli səh: 8-də)

**Portağal:** C vitamini ilə zəngin olan portağal immunitet sistemini gücləndirir və orqanizmin infeksiyalarla mübarizə aparmasına kömək edir. Bundan əlavə, tədqiqatlar göstərir ki, portağal suyu iltihabı azaldır.

**Limon:** Limon həm də C vitamininin əla mənbəyidir. Həzm sistemini yaxşılaşdırır, orqanizmi toksinlərdən təmizləyir və immuniteti artırır. O, həmçinin bədəndə yüngül qələviləşdirici təsir yaradır.

**Zəncəfil:** İltihab əleyhinə xüsusiyyətləri ilə tanınan zəncəfil immunitet sistemini dəstəkləyir, boğaz ağrılarını sakitləşdirir və həzmi asanlaşdırır. Soyuq qış səhərləri üçün mükəmməldir.

**Zərdəçal:** Tərkibində curcumin olduğu üçün güclü antioksidant və iltihab əleyhinə təsir göstərir. Zərdəçal immunitet sistemini gücləndirərkən bədəndə ümumi müalicəni dəstəkləyir və bu qarışığa canlı qızılı rəng verir.

**Darçın:** Qan şəkərinin səviyyəsini tənzimləyən bu ədviyyat həm də mikrobları dəf edən antimikrob xüsusiyyətlərə malikdir. Bədənə istilik verir və içkinizin dadını zənginləşdirir.

**Bal:** Antibakterial və antioksidan xüsusiyyətlərə malik olan bal boğaz ağrılarını sakitləşdirir və qarışığa təbii şirinlik qatır. İmmunitet sisteminə də töhfə verir.

**Qara Bibər:** Qara bibər zərdəçalda kurkuminin udulmasını artırır və şərbətin dadını canlandırır. O, həmçinin infeksiyalardan qorunmağa kömək edir.

**Bəs necə hazırlanır?**

Portağal və limondan suyu sıxıb bir qaba və ya stəkana əlavə edin.

Şirəyə sürtgəcdən keçirilmiş zəncəfil və zərdəçal əlavə edin.

Qarışığa bal, darçın və qara bibər əlavə edin.

Bütün maddələri qarışdırın və homojen bir qarışıq əldə edin.

İstəyirsinizsə, qarışığı bir stəkana süzün və zəncəfil və zərdəçal iplərini çıxarın.

Təzə içmək və maksimum fayda əldə etmək üçün acqarına istehlak etməyə diqqət yetirin.

Daha çox etmək istəyirsinizsə, həcmini iki qat artırıb soyuducuda 3 günə qədər saxlaya bilərsiniz.

**Nədən hər səhət istifadə etməlisiniz?**

Səhər bu şərbəti içmək maddələr mübadiləsini sürətləndirir və bədəninizi günə hazırlayaraq immunitet sisteminizi gücləndirir. Portağal və limonun yüksək C vitamini tərkibi toxunulmazlığı artırır, zəncəfil və zərdəçal isə iltihabla mübarizə aparır və enerjinizi artırır. Darçın və bal sizi istiləşdirir və ümumi qış xəstəliklərindən qoruyur. Qara bibər zərdəçalın faydalarından maksimum istifadə etməyə imkan verir.

Unutmayın ki, bu qarışıq yalnız immunitetinizi dəstəkləmək üçün bir köməkçidir və hər hansı bir sağlamlıq problemi zamanı həkiminizlə də məsləhətləşmək vacibdir.

**Turan**



## Hər uşağa görə aliment 400 manat ola bilməz

### Belə olarsa, ciddi problemlər yaranar və cəmiyyəti daha da kriminallaşdırar

**2025-ci ilin yanvarın 1-dən etibarən Azərbaycanda alimentin minimum məbləği 235 manatdan 246 manata qaldırılacaq.**

Məsələ Milli Məclisin Əmək və sosial siyasət komitəsi ilə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən birgə iclasında müzakirəyə çıxarılıb.

Bildirilib ki, "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında" qanun layihəsində yaşayış minimumu uşaqlar üçün 246 manat məbləğində müəyyən edilib. Bu həm də alimentin minimum məbləği deməkdir.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov iclasda qeyd edib ki, uşaqlar üçün yaşayış minimumunun 2028-ci ildə 275 manat olacağı proqnozlaşdırılır.

Qeyd edək ki, alimentin minimum məbləği 2023-cü ildə 220 manat, 2024-də 235 manat olub.

**Tanınmış hüquqşünas, vəkil Adəm Məmmədov "Şərq"ə bildirib ki, alimenti ödəməyən şəxslərə güzəşt tətbiq edilmir:**

"Ən minimal alimentdir bu. Hər uşağa görə ödənişi 400 manat etsələr, böyük çətinliklər yaranar. Yəni boşanma ciddi probleme çata bilər və cəmiyyəti daha da kriminallaşdırar. Digər tərəfdən bilirik ki, bəzi ailələrin maddi imkanı və sosial durumu yaxşı olmadığı üçün boşanırlar. Yəni həmin şəxsin imkanı olsaydı, ailəsinə, uşağına baxardı və heç bir söz-söhbət yaranmazdı. Bir sözlə, minimum əməkhaqqı alan şəxs boşandıqdan sonra iki övladına aliment ödəyə bilmir. Qanunda göstərilir ki, bir uşağa görə dörddə 1 , iki uşağa görə dörddə 2, üç  və daha artıq uşağa isə qazancın yarısı ödənilir. Əgər rəsmi iş yeri və digər qazancı yoxdursa, ödəyəcəyi aliment 240 manatdan aşağı olmamalıdır. Əgər şəxs 400-500 manat maaş alırsa və bir uşağa 240 manat aliment ödəyirsə, bunun bir hissəsi maaşdan tutulacaq, digər hissəsi isə verilməyən borc kimi qeydə alınacaq. Alimenti ödəməkdən qaçan şəxslər isə həm İnzibati məsuliyyətə (528 maddə), həm də məhkəmə qərarının qətnaməsini icra etmədiyinə görə cinayət məsuliyyətinə (306 maddə) cəlb olunur. Hətta onlara 3 ilə kimi azadlıqdan məhrumetmə və digər cəza növləri də tətbiq olunur".

**Fidan Həmişəyeva**

Vəli Səmədli, Piriş Qaraoğlu, Aydın Xanəliyev, Sultan Quliyev, Əmir Şahbuzlu Ordubad rayonunun Tivi kəndində yaşayan Əliyevlər ailəsinə

**Əli Həmitoğlunun**

vəfatı ilə əlaqədar başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Elanlar**

Bakı şəhəri, Binəqədi rayonu, "RAS-M" MMC tərəfindən Əliyev Elçin Sərdar oğluna (Ş/V seriya: AZE № 09363614) verilmiş 6 mkr. H.Babaşov küçəsi, 1-ci blok, 13-cü mərtəbə, 108 saylı mənzilin maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Bakı Biznes Universitetinin 2-ci kurs tələbəsi Aslanlı Sevinc Samir qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Təsisçi: "Şərq Media Qrup" MMC**
**Baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Şəhanə Ziyad, Nəzrin Vüqarqızı

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 2689

## Həmişə bu küncdə



## Bir fotonun tarixçəsi - Rəşid və Ceyran Behbudovlar

**Bu foto 1955-ci ildə Bakıda çəkilib.**
Rəşid Behbudov xəstəxanada həyat yoldaşı Ceyran Behbudova ilə görüşür. Behbudovların sevincini paylaşırlar.



## Səhərlər bu qarışığı içən...

Həkim üzü görməyəcək

**Soyuq havalar və qış aylarında uzun müddət qapalı yerlərdə qalmaq xəstəliklərin daha sürətlə yayılmasına səbəb olur.**

Soyuqdəymə, qrip, bronxit, pnevmoniya və digər tənəffüs yolu infeksiyaları ümumi sağlamlıq problemlərindəndir. Bu dövrdə immunitetinizi gücləndirmək və xəstəliklərdən qorunmaq üçün təbii üsullar çox təsirlidir. "Şərq" vitamin bombası ehtiva edən, immunitetinizi gücləndirə biləcək 7 inqrediyentdən ibarət resepti təqdim edir...

Özünüzü xəstəliklərdən qorumaq və immunitet sistemini gücləndirmək üçün istehlak edə biləcəyiniz bir çox təbii qidalar var.

*(Davamı səh: 7-də)*

**Turan**

## Salyanda bataqlıqda qalan leylək xilas edildi





**Salyan sakini bataqlıqda qalan leyləyi xilas edib.**

Azərtac xəbər verir ki, leyləyi düşdüyü bataqlıqdan çıxaran rayonun Sarvan kəndinin sakini Nicat Xəlilov ona qulluq etdikdən sonra yenidən təbiətə buraxıb.

Nicat Xəlilov bildirib ki, o, tez-tez leylək quşlarının endiyi əraziyə gedərək onlara tamaşa edir. "Günorta saatlarında, yenə həmin yerə getdim. Ərazidə 200-ə yaxın leylək var idi. Onları seyr edəndə, bir quşun dəstədən xeyli aralıda bataqlıqda qaldığını, nə qədər çırpınsa da, oradan çıxa bilmədiyini gördüm. Tez ora yaxınlaşıb onu kənara çıxartdım. Sonra həyətə gətirərək təmizlədim və yenidən leylək dəstəsinin olduğu əraziyə buraxdım", - deyə kənd sakini əlavə edib. Onun sözlərinə görə, hər il bu əraziyə mövsüm zamanı leyləklər gəlir, bir müddət qaldıqdan sonra yenidən köç edirlər.

## Nə dərman, nə də mafiya...

Brüs Linin ölüm sirri 51 il sonra açıldı



**Brüs Linin müəmmalı ölümünün sirri 51 ildən sonra açıqlanıb.**

Milli.Az xəbər verir ki, ispaniyalı həkimlərin apardığı araşdırmalara görə, ölümün səbəbi nə baş ağrısı üçün qəbul edilən dərman, nə də mafiyanın müdaxiləsi olub, əsasən səbəb suyun orqanizmə həddindən artıq yığılmasıdır. Madrid Elmi İnstitutundan Priskilla Vilyavalso və komandası bu barədə məqalə yayıblar. Onlar Brüs Linin ölümündən sonra aparılan autopsiya nəticələrini təhlil edərək, XX əsrin ortalarındakı məşhur "əjdaha"nın nadir xəstəliyi olan hiponatremiyanı aşkar ediblər. Bu xəstəlik, böyrəklərin orqanizmdən artıq suyu atmaqda çətinlik çəkməsi ilə əlaqəlidir. Sadə dillə desək, beynində çox miqdarda maye toplanıb.

*Xatırladaq ki, Brüs Li 1973-cü il iyulun 20-də "Ölüm oyunu" filmi üzərində işləyərkən Honq-Konqda qəflətən dünyasını dəyişib.*

## Alonso həyat yoldaşı ilə birgə Madridə köçür



**Leverkuzenin "Bayer" klubunun baş məşqçisi Xabi Alonso Almaniya klubunu tərk etmək qərarı verib.**

Milli.Az xəbər verir ki, o, bundan sonra "Real"a rəhbərlik edəcək. 42 yaşlı mütəxəssis həyat yoldaşı Naqore ilə birlikdə Madridə köçəcək.

*Qeyd edək ki, "Bayer"in ulduzu Alonso keçən mövsümdə inanılmaz bir irəliləyiş edib. Ulduz futbolçu Bundesliqa və Almaniya Kubokunu qazanıb və "Neverkuzen" ləqəbini keçmişdə qoyub.*









# Dünyanın ən uzun və ən qısa qadını

## İlk dəfə Londonda bir hoteldə tanış olublar

### "Başımı qaldırıb dünyanın ən uzun qadınını görməkdən çox xoşbəxt oldum"

**Türkiyənin Karabük bölgəsinin Safranbolu rayonunda yaşayan və 2 metr 15 santimetr boyu ilə "dünyanın ən uzun qadını" titulunu qazanmış Rumeysa Gelgi və "Dünyanın ən qısa qadını" adına sahib 62,8 santimetr boyu olan aktrisa Jyoti Amge Ginnesin Rekordlar Kitabı Günü çərçivəsində ilk dəfə bir araya gəliblər.**

"Şərq" "NTV.com.tr"tə istinadən bildirir ki, ən uca və ən qısa boylu iki qadın Böyük Britaniyanın paytaxtı Londonda bir hoteldə görüşüb. 27 yaşlı Gelgi və Amge həyat hekayələrini və təcrübələrini çay süfrəsi arxasında 5 saat ərzində bir-biriylə bölüşüblər. Kitabın 70 illik yubiley nəşrində ikili "Ginnesin Rekordlar Kitabının İkonları" kimi qiymətləndirilib. Rumeysa Gelgi, "Jyoti ilə görüşmək çox gözəl idi. Boy fərqimizə görə bəzən göz təması qurmaqda çətinlik çəkirdik, amma bu, əla idi. Bizim ortaq maraqlarımız var. İkimiz də makiyaj etməyi, şəxsi baxım etməyi və dırnaqlarımızı rəngləməyi sevirik" deyib. Jyoti isə "Mən yuxarı baxmağa və məndən uzun insanları görməyə öyrəşmişəm, lakin bu gün başımı qaldırıb dünyanın ən uzun qadınını görməkdən çox xoşbəxt oldum. Rumeysə ilə tanış olmaqdan çox məmnun oldum, o, çox mehribandır və onunla danışarkən özümü çox rahat hiss etdim", söyləyib. "Weaver" sindromundan əziyyət çəkən Rumeysa Gelgi 2014-cü ildə "dünyanın ən uzun yaşayan gənc qızı", 2021-ci ildə "dünyanın ən uzun yaşayan qadını", "ən uzun barmaqları olan qadın", 2022-ci ildə "dünyanın ən uzun kürəkli qadını" kimi Ginnesin Rekordlar Kitabına layiq görülüb. "Axondroplaziya" adlı sümük böyüməsi pozğunluğu olan hind aktrisası Cyoti Amge "ən qısa ömür sürən aktrisa" və "ən qısa yaşayan qadın" titullarının sahibi olaraq adını Ginnesin Rekordlar Kitabına yazdırıb.

**Məlahət**






## Dialoq...

**Dəyərli oxucular! Bu fotoya ən yaxşı şəkilaltı söz yazanı yeni ildə hədiyyə gözləyir!**
Xahiş olunur bu boş yerə "polislə babanın dialoqu"nu yazıb göndərəsiniz.

----------------------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------------------------------
----------------------------------------------------------------------------------------------------

**QEYD: Bu hissəni kəsib zərfdə redaksiyaya göndərmək şərtdir.**
**ÜNVAN: "Azərbaycan Nəşriyyatı", "Şərq" qəzeti redaksiyası, 7-ci mərtəbə.**

**Razi Abasbəyli:** - Niyə avtobus yoluna çıxmısan, yol nişanını da görmürsən, düz davam etmək qadağandır?
**Əsgər İsmayılov:** "Ağa" deyir: - sür dərəyə! - sür dərəyə...
**Etibar Cəbrayıloğlu:** "Faytonun nömrəsini niyə açmısan? Bir də belə etsən, 4 bal yazacam"
**Mübariz Hacılı:** Saxla, bura üfür!
**Rasim Mədəd:** *Keçmişdən gələn qoca:*
Rəis, bu küçələrin bir zolağı "parkinq", bir zolağı balaca maşınlar, bir zolağı avtobus, bir zolağı da velosiped üçündür... Bəs, mən haradan gedim?
Rəis:
- Stop. Sən qayıt keçmişə...
**Farid M. Bayramlı:** Rəis, sizdə neçə at gücüdür?
**Elman Eldaroğlu:** A kişi, gördün ki, yol polisi əlindəki dəyənəyi yuxarı qaldırıb, faytonu saxla
**Oktay Oruc:** Velosiped yolu ilə gedirsən. Cərimədəsindən deyəsən xəbərin yoxdur!
**Cavid İsmayıl:** Asta sür faytonu, amandır, əmi, COP vaxtı fayton qadağandır, əmi!
**Vəfadar Əliyev:** Ələ tormuzla... - avtobus yoluna girmisən....
**Rasim Məmmədov:** Avtomobil müfəttişinin faytonçuya mehribanlıqla verdiyi məsləhət!!!
**İlkin Əliyev:** Keçmişin at gücü indiki qaydalardan qaça bilmir...
**Hikmət Yaqubov:** Sən lap ağ eləmisən, sağ zolağı qoyub, sol zolaqla gedirsən.
**Məğrur Əli Polad** Ağsaqqal, de görüm, bu neçədi?
**Javani Ağayev:** Sıfır emissiya.
**Tural Turan:** Vətəndaş, sürücülük vəsiqəniz var? - Var oğlum, Süleyman peyğəmbərin öz dəst-xətti ilə yazılıb, göstərim?!
**Ağaşah Kərimov:** COP zolağına çıxmısan, 100 manat cərimə olunursan.
**Şirvani Hümmətoğlu:** Ağsaqqal necəsən, nə var nə yox...
**Sadi Yaradanqulu:** Avtobus yoluna keçmək qadağandır. Cərimə edilirsən.

## Divara yapışdırılan banan

6.2 milyon dollara satılıb



**İtalyan rəssam Mauritsio Kattelanın "Divara yapışdırılmış banan" adlı əsəri 2019-cu ildə 120 min dollara satılıb.**

Yapışqanlı bantla divara bərkidilmiş adi bananın minlərlə dollara satılması sosial mediada böyük səs-küyə səbəb olub və onu "sənət əsəri" adlandırması geniş müzakirələrə səbəb olub. "Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, "Sothebys" hərrac evi əsərin üç nüsxəsindən birini yenidən satışa çıxarıb. Əsərin 1-1,5 milyon dollara alıcı tapacağı gözlənilirdi. Hərracda gümüş lentlə divara yapışdırılmış adi banan 6,2 milyon dollara satılıb. Kriptovalyuta sahibkarı Castin Sun, 2019-cu ildə viral olan əsərin üç nəşrindən birini satın alıb və onu "mədəni fenomen" adlandırıb. Kriptovalyuta təkliflərinin qəbul edildiyi rəqabətli və sürətli hərracda təkliflər 800.000 dollardan başlayıb. Telefon və onlayn təkliflərin sürətlə artması ilə işin satış qiyməti təxminləri aşıb. Bananı alan Castin Sun banan və bir rulon yapışqan lenti, həmçinin orijinallıq sertifikatı da alacaq. C.Suna əsərin necə qorunacağı dair təlimat veriləcək və istəsə bananı necə dəyişə biləcəyi də izah ediləcək. C.Sun hərracda verdiyi açıqlamada, "bu, sadəcə bir sənət əsəri deyil, mədəni bir fenomeni təmsil edir. İnanıram ki, bu əsər gələcəkdə daha çox düşüncə və müzakirələrə ilham verəcək və tarixin bir parçası olacaq". Sun, "həm sənət tarixində, həm də populyar mədəniyyətdəki yerini şərəfləndirmək" üçün banan yeməyi planlaşdırdığını söyləyib. 2021-ci ildə "Art Newspaper"ə verdiyi müsahibədə rəssam Cattelan bunun "zarafat olmadığını" söylədi və viral işi "qiymətləndirdiyimiz şeylərin əksi" adlandırıb. Rəssam Cattelan və fransız incəsənət qalereyası Perrotin 5 il əvvəl "Art Basel Miami Beach" sərgisində "Komediyaçı" əsərini nümayiş etdirərək dünya miqyasında trend olub. Əsər Mayami ərzaq mağazasında alınmış banandan istifadə edilməklə yaradılıb, lakin qalereya onun rəssamın göstərişi əsasında dəyişdirilə biləcəyini bildirib. Sənət dünyası əsərin dəyərinə görə ikiyə bölünüb, lakin bəzi tənqidçilər bu sənət anlayışının sənətin dəyərini şübhə altına alan konseptual əsərlərə əsaslandığını iddia edir. Bananın sərgiləndiyi qalereyada böyük izdiham yaranıb və hamı "Məzhəkə" adlı əsəri görmək üçün növbəyə düzülüb. Corciyada doğulan və ABŞ-də yaşayan ifaçı David Datuna əsəri divardan qopararaq yeyib. Hadisə zamanı "Sənət ifası... Ac rəssam..." deyən Datuna qarşı heç bir şikayət olmasa da, əsər sərgiləndiyi yerdən çıxarılıb. Nyu-Yorka dönərkən mövzu ilə bağlı mətbuat konfransı keçirən Datuna, "Bu, vandalizm deyil. Performans sənəti idi. Qəti peşman deyiləm", deyib. Əsəri yeməzdən əvvəl ac qalmaq üçün 2 saat gözlədiyini ifadə edən Datuna, "Bu, banan deyil. Bu bir anlayışdır. Mən yalnız rəssamın konseptini yedim. Düşünürəm ki, tarixdə ilk dəfə bir sənətçi bu şəkildə yemək yeyir", söyləyib.

**Məlahət**